YENİ MÜSAVAT

www.musavat.com

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27 noyabr 2015-ci il Cümə axşamı № 264 (6292) Qiyməti 40 qəpik

**Xəbər**

## Daha bir neçə səfir geri çağırılacaq

yazısı səh.8-də

**Gündəm**

### Türkiyənin baş diplomatının Bakı səfərinin pərdəarxası



Mövlud Çavuşoğlu Azərbaycanda yüksək səviyyədə görüşlər keçirəcək; Ərdoğandan Putinə sərt cavab gəldi; ruslar yeni düşmən tapdılar - bozqurdlar...

yazısı səh.9-da

### Vurulan təyyarə Azərbaycanın başında çatlaya bilər

yazısı səh.10-da

### Hüquq müdafiəçisi əfv ümidlərindən danışdı

yazısı səh.7-də

### Partiya sədri "ictimai əyyaş" ifadəsinə izahat verdi

yazısı səh.11-də

### Əməkdaşımız Pənah Hüseynin həbs təhlükəsi ilə üzləşən qohumlarından yazır

yazısı səh.3-də

### Körpələri niyə küçəyə atırlar - psixoloq və hüquqşünas danışır

yazısı səh.12-də

### Hakimiyyətin gənc kadr siyasətinə münasibət fərqlidir

yazısı səh.11-də

### Xaçmazdakı həbslərin İŞİD-lə nə əlaqəsi?

yazısı səh.7-də

### Ədliyyə Nazirliyi qəzetləri iki ay qapada biləcək

yazısı səh.8-də

### Əli İnsanovun məhkəməsi baş tutmadı

yazısı səh.5-də

### Bakıda tələbə qız intihar etdi

yazısı səh.15-də

## "Azəriqazbank"ın rəhbəri çıxılmaz durumda

# ÇİNGİZ ƏSƏDULLAYEV ÖLKƏDƏN GETMƏK İSTƏYİR - "QAÇIŞ?"

Hakimiyyət daxilindəki bir qrup bankirə namizəd olduğu 90 saylı dairədən "qələbə qazanmasına" kömək edib, iqtidarın ən yüksək düzeyində ciddi etirazları gördükdə isə dərhal verdikləri qərarın arxasından çəkiliblər; Eldar Mahmudovun işdən çıxarılmasından sonra Əsədullayevin hakimiyyət daxilindəki əleyhdarları da haqq-hesab üçün hərəkətə keçiblər...




yazısı səh.5-də

## Nardaranda bir qrup radikallara qarşı əməliyyat: 6 ölü

Öldürülənlər arasında polislər də var; Daxili İşlər Nazirliyi və Baş Prokurorluq birgə məlumat yaydı: "Respublikada ictimai-siyasi sabitliyi pozmaq, təxribatlar, kütləvi iğtişaşlar, terrorçuluq aktları törətmək planlaşdırılıb"

yazısı səh.4-də



### MTN-in xanım generalı ev dustağıdır

yazısı səh.5-də



### "Üzr məsələsi" qalmaqala çevrilir: İradə Tuncay da...

yazısı səh.13-də



*Hikmət Hacızadə:*

### "Rus cəmiyyəti "psix" duruma düşüb"

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 264 (6292) 27 noyabr 2015



## İlham Əliyev dövlət katibini və Gürcüstan DİN rəhbərini qəbul edib

**Dövlət başçısı İlham Əliyev Fransa Respublikasının Desentralizasiya və Dövlət Qulluğu üzrə Nazirliyinin regionların islahatları məsələləri üzrə dövlət katibi, hökumət üzvü Andre Vallinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Görüşdə iqtisadi, siyasi, energetika və digər sahələrdə ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub.

Dünən İ.Əliyev Gürcüstanın daxili işlər naziri Mqrebrişvilini də qəbul edib. Tərəflər iki ölkənin hüquq-mühafizə orqanlarının əməkdaşlığı məsələlərini müzakirə ediblər.

## Rusiyada türk iş adamlarının kütləvi həbsi başladı



**Rusiyada çalışan və ya bu ölkəyə müvəqqəti işgüzar səfərə gedən türkiyəli iş adamlarına təzyiqlər artıb. Bu həftə ərzində (noyabrın 24-26-sı arası) təkcə "YuqAqro" sərgisinə qatılan Türkiyə vətəndaşlarından 39 nəfəri "miqrasiya qanunlarını pozmaq" adı altında saxlanıb.**

Virtualaz.org saytı xəbər verir ki, saxlanılan türk vətəndaşları sərgidə Türkiyə məhsullarını nümayiş etdirən iş adamları, şirkət nümayəndələri olublar.

Federal Təhlükəsizlik Xidmətinin Krasnodar vilayəti üzrə idarəsindən bildiriblər ki, saxlanılan türk iş adamlarının "biznes fəaliyyəti üçün müvafiq icazəsi və işgüzar vizası olmayıb".

Federal Təhlükəsizlik Xidmətinin Krasnodar vilayəti üzrə idarəsi immiqrasiya nəzarəti şöbəsinin müavini Vartan Ter-Saakyan bildirib ki, Rusiyaya sahibkarlıq və ya kommersiya fəaliyyəti ilə bağlı gələn Türkiyə vətəndaşlarının işçi vizalarının olması məcburidir.

Məlumata görə, türk iş adamları viza qaydalarını pozmaqda ittiham olunur. Onlar 2-5 min rubl arasında cərimə ödəməli olacaqlar. Cəriməni ödəyəndən sonra isə Rusiyadan deportasiya ediləcəklər.

## MTN-in daha bir generalı işdən çıxarıldı

**Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Antiterror Mərkəzinin rəisi işdən azad edilib. Hüquq-mühafizə orqanlarındakı rəsmi mənbələrdən haqqin.az saytına verilən məlumata görə, milli təhlükəsizlik naziri vəzifəsini müvəqqəti olaraq icra edən Mədət Qulyevin müvafiq əmri ilə Antiterror Mərkəzinin rəisi, general-mayor Elçin Quliyev tutduğu vəzifədən azad olunaraq MTN-in Heydər Əliyev adına Akademiyasının kafedra rəisi təyin edilib.**

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.40 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Müəllimlər İnstitutu Pedaqoji Universitetə birləşdirildi

**Prezident İlham Əliyev Azərbaycan Müəllimlər İnstitutunun Azərbaycan Dövlət Pedaqoji Universitetinə qoşulması barədə sərəncam imzalayıb.**




Dövlət başçısı pedaqoji kadrların müasir tələblər səviyyəsində hazırlanmasını təmin etmək, ali təhsil müəssisələrinin sayını optimallaşdırmaq, mövcud maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaq məqsədilə qərara alıb ki, Azərbaycan Müəllimlər İnstitutu Azərbaycan Dövlət Pedaqoji Universitetinə qoşulsun. Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi, Cəlilabad, Qazax, Quba, Şamaxı, Şəki və Zaqatala filialları Azərbaycan Dövlət Pedaqoji Universitetinin filialları hesab olunsun.

## Şeyx: "Azərbaycanda dini münaqişə yoxdur"

**"Azərbaycanda dinlər və təriqətlərarası münasibətlər normaldır".**

APA-nın məlumatına görə, bunu İranın təhsil naziri Əliəsgər Faninin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edən Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə bildirib.

A. Paşazadə deyib ki, Azərbaycan müstəqillik əldə etdiyi zaman ölkədə 17 məscid olub, müstəqillikdən sonra məscidlərin sayı sürətlə artıb. QMİ sədri ölkəmizdə şiə və sünnilərin faiz nisbətinin də dəqiq məlum olmadığını bildirib: "Biz təriqətlərarası münasibətləri Azərbaycanda uğurla həll etmişik. Azərbaycanda dini münaqişə yoxdur".

## "Şərq tərəfdaşlığı" ölkələri xarici işlər nazirlərinin görüşü başa çatıb

**Gürcüstanda "Şərq tərəfdaşlığı" proqramının iştirakçısı olan ölkələrin xarici işlər nazirlərinin 6-cı qeyri-rəsmi görüşü başa çatıb.**

APA-nın Gürcüstan bürosunun məlumatına görə, görüşün yekunları ilə bağlı mətbuat konfransı keçirilib.

Gürcüstanın xarici işlər naziri Georgi Kvirikaşvili son illər "Şərq tərəfdaşlığı" ölkələrinin iştirakı ilə həyata keçirilən bir sıra beynəlxalq layihələrin, o cümlədən nəqliyyat, eləcə də regional təhlükəsizlik məsələlərinin müzakirə edildiyini deyib.

Avropa Qonşuluq Siyasəti və genişlənmə üzrə komissar Yohannes Han isə Gürcüstanda həyata keçirilən islahatları alqışlayıb.

Mətbuat konfransından sonra Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Aİ-nin komissarı Yohannes Han arasında görüş keçirilib. Görüş jurnalistlər üçün qapalı olub.

Gürcüstanın xarici işlər naziri Georgi Kvirikaşvili APA-ya açıqlamasında görüşdə Avropa İttifaqının bir həftə əvvəl açıqladığı "Qonşuluq üzrə yeni siyasətdə Şərq tərəfdaşlığının rolu" adlı sənədin müzakirə olunduğunu söyləyib: "Biz bu barədə plan və "Şərq tərəfdaşlığı"nın bundan sonra inkişafını müzakirə etdik. Bu, ən əsas məsələ idi. Biz həmçinin regionda baş verən situasiyanı və tərəfdaş ölkələrlə Aİ formatında əməkdaşlığı müzakirə etdik".

## Adil Hüseynovun həbs müddəti uzadılıb

**Nərimanov Rayon Məhkəməsində Azərbaycan Beynəlxalq Bankının Dubay filialının həbsdə olan müdiri Adil Hüseynovun barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti uzadılıb. Adil Hüseynovun vəkili Kamandar Nəsibovun APA-ya verdiyi məlumata görə, noyabrın 25-də keçirilən məhkəmə iclasında A. Hüseynovun həbs müddətinin 2 mart 2016-cı il tarixinə qədər uzadılması barədə qərar qəbul edilib.**

Qeyd edək ki, Azərbaycan Beynəlxalq Bankı ilə bağlı başlanılan cinayət işi üzrə saxlanılan şəxslərin həbs müddətinin uzadılmasına bir müddət əvvəl başlanılıb. Həmin iş üzrə saxlanılan şəxslərin həbs müddəti məhkəmənin qərarı ilə uzadılıb.

Onu da qeyd edək ki, Azərbaycan Beynəlxalq Bankı ilə bağlı Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) və digər maddələrinə əsasən cinayət işi başlanılıb. Bankdan yüksək məbləğdə kredit götürərək vəsaitləri qaytarmayan bankın sabiq məsul vəzifəli əməkdaşları və iş adamları - Beynəlxalq Bankın Mərkəzi filialının direktoru olmuş İlqar Abdullayev, Beynəlxalq Bankın Nəqliyyat filialının direktoru vəzifəsində işləmiş Kənan Orucov Azərbaycan Beynəlxalq Bankının Dubay filialının müdiri Adil Hüseynov, Beynəlxalq Bankın inzibati binalarının mühafizəsini həyata keçirən "İnter Security" MMC-nin baş direktoru İbrahim Hüseynov, "Azərinşaatservis" MMC-nin Müşahidə Şurasının sədri Arif Həsənov, "Azərinşaatservis" MMC-nin təsisçisi olduğu "Trek İnvest" SC-nin direktor əvəzi Əli Əlişov və "İnter Glass" ASC-nin direktoru Fariz Muradov və digər bir neçə nəfər həbs olunub.

Bundan əlavə, bankın sabiq rəhbəri Cahangir Hacıyev də istintaqa cəlb olunub. O, iş üzrə bir neçə dəfə ifadə verib.

## AMEA-dan Akif Çovdarovla bağlı açıqlama

**Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) mətbuatda "Akif Çovdarovun keçi ferması, MTN məmurlarının zavodları, restoranları..." başlıqlı yazıda AMEA-nın Dendralogiya İnstitutunun adının hallandırılmasına münasibət bildirib. AMEA-nın İşlər idarəsindən "Report"a bildirilib ki, mediada AMEA-nın Dendralogiya İnstitutunun daimi istifadəsində olan ərazidən Xəzər Rayon İcra Hakimiyyəti tərəfindən fiziki şəxsə torpaq sahəsinin ayrılması barədə məlumatlar öz əksini tapıb.**

AMEA-nın İşlər İdarəsi bildirir ki, Dendralogiya İnstitutu (Mərdəkan Dendrarisi) AMEA-nın milli sərvətidir. İnstitut həm tarixi əhəmiyyətlidir, həm də təbiət muzeyidir. Bu günə qədər özəlləşdirilməsi, yaxud hər hansı bir şəxsin istifadəsinə ayrılması üçün heç bir göstəriş və ya sərəncam verilməyib. 2014-cü ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı əsasında elmi-iqtisadi potensialı nəzərə alınaraq, Mərdəkan Dendrarisi Dendralogiya İnstitutu adlandırılıb. Hazırda institutun inkişaf perspektivləri üçün yeni təcrübə sahələrinin ayrılması məqsədilə müvafiq layihələr hazırlanmaqdadır. 1967-ci ildə Nazirlər Kabineti tərəfindən Mərdəkan Dendrarisinə 12 ha torpaq sahəsi ayrılıb. İndiyə qədər bu ərazidən heç bir hüquqi və ya fiziki şəxsə torpaq sahəsi verilməyib, eldə olunması ilə bağlı müraciət olunmayıb.



## Səlim Müslümov 4 məmuru işdən çıxardı

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində (ƏƏSMN) aidiyyəti fəaliyyət sahələrində islahat tədbirlərinin praktiki tətbiqi məsələlərinə həsr olunmuş müşavirə keçirilib. Müşavirədə nazirliyin fəaliyyət sahələrində aparılan islahatların sürətləndirilməsi, tibbi-sosial ekspertiza xidmətinin avtomatlaşdırılması üçün aparılan texniki işlərin mövcud durumu, yerli qurumlarda əhaliyə göstərilən xidmətin vəziyyəti geniş müzakirə olunub.**

Müzakirələrin nəticələrinə uyğun fəaliyyətində neqativ hallara yol verən iki Tibbi-Sosial Ekspert Komissiyasının sədri və iki Əhalinin Sosial Müdafiəsi Mərkəzinin direktoru tutduqları vəzifədən azad olunub. Bundan başqa, funksional vəzifələrinin icrasında nöqsanlar aşkarlanan 4 əməkdaş tutduğu vəzifədən azad olunub, 28 əməkdaş barəsində isə inzibati tənbeh tədbirlərinin görülməsinə dair qərarlar qəbul edilib.

## PA rəsmisi Türkiyə-Rusiya əlaqələrinin gərginləşməsinə təəssüflənir

**Azərbaycan təəssüf edir ki, Türkiyə-Rusiya əlaqələri belə gərginləşib. Virtualaz.org bildirir ki, bunu Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov twitter-dəki səhifəsində yazıb.**

"Türkiyə bizim ən yaxın müttəfiqimizdir, eləcə də Rusiya bizə çox yaxın dost ölkədir. Hər iki ölkə ilə Azərbaycanı tarixi əlaqələr bağlayır. Hər iki ölkə ilə əlaqələrimiz ən yüksək səviyyədədir. Azərbaycan çox istəyir ki, dostları arasında heç bir qarşıdurma olmasın. Azərbaycan gərginliyin azalması işində öz töhfəsini verməyə hazırdır", - deyə PA rəsmisi vurğulayıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 264 (6292) 27 noyabr 2015







# "Pənahın xətrinə həbsə yox, ölümə də gedərəm..."

## Əməkdaşımız Pənah Hüseynin həbs təhlükəsi ilə üzləşən qohumları ilə görüşdü

**Keçmiş baş nazir, 1 noyabr seçkilərində səsli - küylü seçki kampaniyası aparan, yeni mərhələnin müxalif siyasi lideri olma iddiası ilə gündəmdə olan Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseynin qohumlarına həbs təhlükəsi yaranıb. Onun qardaşı, qardaşı oğlu və beş əmisi oğlu Cinayət Məcəlləsinin xuliqanlıq, 221.2. və 223.2. maddələri liə ittiham olunurlar, noyabrın 30-da barələrində hökm oxunacağı gözlənilir.**

Azərbaycanda müxalifətçi qohumlarının oduna düşüb məhkəməyə çəkilən, həbs edilənlər elə də nadir rast gəlinən hadisə olmasa da, kifayət qədər tanınmış və aktual bir siyasi müxalifət liderinin birdən- birə 7 yaxın qohumunun belə ciddi maddələrlə məsuliyyətə cəlb edilməsi təhlükəsi sıradan bir məsələ kimi qarşılana bilməzdi. Daha sonra Pənah Hüseynin "Bu adamların günahı odur ki, mənim qohumlarımdır" başlıqlı müsahibəsi məsələyə diqqəti bir az da artırdı. Bu səbəbdən Pənah Hüseynin anadan olduğu və haqqında danışılan qohumlarının yaşadığı Sabirabad rayonunun Qaraqaşlı kəndinə getdik.

Bakı-Kürdəmir yolunun 150-ci klometrində bizi səhər saat 11 radələrində Pənah Hüseynin "xuliqan" əmisi oğlanlarından biri, əvvəldən tanıdığım Mansur Hüseyn qarşıladı və Qaraqaşlı kəndinə istiqamət aldıq. Kəndə catmağa xeyli qalmış o, əlini sağ tərəfə uzadaraq dedi: "Həmin hadisə burada olub". Həmin istiqamətdə heç bir yaşayış izi görünməyən çöl vardı.

**Yoldan 200 metr sağa dönüb hadisə yerində dayandıq. İlk fotoşəkli də burada çəkdik. "Burada, çölün düzündə nə xuliqanlıq" sualıma Mansur gülümsəyərək cavab verdi:** "Vallah, biz də başa düşmürük işin qanuni tərəfini, vəkillər də bunu deyir. Ancaq deyəsən, onları eşitmək istəyən yoxdur".

**Sonra evdə o, hadisə yerinə baxış protokolunun surətini də göstərdi. İttiham aktını yazmış müstəntiq Y. Eyvazovun özünün tərtib etdiyi protokolda hadisə yeri belə qiymətləndirilib:** "Dava baş verən yer kənddən kənarda şor su kollektorunun yanından keçən torpaq yoldur. Yolun bir tərəfi boş əkin sahələri, digər tərəfi isə şor su kollektorudur. Kəndə gedən avtomobil yolundan 150 m şimala doğru olan məsafədədir. Qeyd edilən yerdə yaşayış evləri, ictimai-iaşə obyektləri yoxdur".

**İlk getdiyimiz ünvan Pənah Hüseynin ata evi oldu. P.Hüseynin 1964-cü il təvəllüdlü qardaşı Adil Hüseynov həyat yoldaşı və 17 yaşlı oğlu Toğrula, dörd bacısı ilə atadan qalma üç otaqlı evdə yaşayırlar.** "Məhkəmədə zərərçəkənlər hamısı bildirdi ki, məni deyilən hadisə vaxtı heç görməyiblər, oraya ən axırda gəlmişəm. Mən ürək əməliyyatı keçirmişəm. O vaxt ayağımın və qolumun birini zorla qaldırırdım. İttihamnamədə isə yazıblar ki, mən orada nalayiq söyüşlər söyüb Rembo, Ceki Çan kimi fəndlər göstərib özümdən iki dəfə cavan oğlanları döyüb xəsarətlər yetirmişəm. Birinci dəfə deyil ki... 2003-cü ildə də 16 oktyabr hadisələri vaxtı çoxu heç o gün Bakıda olmayan 16 qohumumuzu tutdular, əziyyət verdilər. Doğrudur, sonra əksəriyyəti sərbəst buraxıldı. Mansurla mənə isə 5 il və 3 il həbs verdilər. Sonra əfvlə azad olunduq. İndi də hakim deyir ki, siz residivistsiniz. 2003-cü ildən də əvvəl belə şeylər dəfələrlə olub. İndi də nə olacaqsa, olacaq. Bu vaxta qədər qurtaran Allah bundan sonra da qurtarar".







**Buradan Pənah Hüseynin böyük əmisi Xankişi kişinin həyətinə keçirik. Keçirik deyəndə, Pənah Hüseynin ata və əmilərinin evləri elə bir həyətdədir. Araları 20-25 metr ola, ya olmaya. Digər ittiham olunan Xalid Hüseynov burada 85 yaşlı atası, 78 yaşlı anası və uşaqları ilə yaşayır. Xalid çox danışana oxşamır. "Sədərək" bazarında xırda ticarətlə məşğuldur.** "Malı götürmüşük, müştəri yoxdur. Belə getsə, heç icarə pulunu çatdıra bilməyəcəyik. Dükanı bağlamalı olacağıq. Prezidentin on min manatlıq vergisiz mal gətirmə fərmanı işləsə, deyirlər, bəlkə işlər bir qədər yaxşılaşdı. Gömrüyü müvəqqəti ləğv etmək olmaz?",- deyə bizdən soruşur.

**Xalidin böyük qardaşı, "xuliqanların" ən yaşlısı, 1963-cü il təvəllüdlü İxtiyar Hüseynov bir qədər uzaqda, 1992-ci ildən sonra paylanmış torpaq sahələri olan "Yeni yurdlar" deyilən yerdə tikdiyi evində məktəbli oğulları və qızıyla, həyat yoldaşıyla birgə yaşayır. Biz onun həyətində olanda primitiv üsulla quraşdırılmış istixanasında işləyirdi. Pomidor, xiyar, limon yetişdirir.** "Bu il pomidor yaxşı olmadı. Polis nəzarətində olduğumuza görə bir yerə də çıxa bilmədim. Bahalıq da baş alıb gedir. Əlavə qazanc yeri də yox. Bilmirik, necə olacaq",- deyir. Cinayət işi barədə soruşuruq. Çünki ən ağır maddəni 221.3-ü ona veriblər. "Mənə yazıblar ki, guya orada əks tərəfdən birinin başına taxta parçası ilə vurmuşam, nəticədə də onun təpə nahiyəsində sağlamlığı qısa müddətə pozan qançır əmələ gəlib. Mən deyirəm ki, zərərçəkmiş deyilənlərdən əlavə bir adam desin ki, məndə ağac parçası görüb, yaxud mənim kimisə vurduğumu görüb. Çünki orada bizdən başqa da bir neçə nəfər olub. Ya ekspert bildirsin ki, o şəxsin təpəsindəki qançır ağacdan əmələ gəlib, mən hər cəzaya hazıram. Durduğum yerdə şərə düşmüşəm. Burada parnikdə başım gündə bir neçə dəfə ağaclara dəyir, qançır da olur. Buna görə adam tutarlar? Pənahın xətrinə həbsə yox, ölümə də gedərəm. Ancaq iş də bir iş olar axı..."

Xalidgilin ortancıl qardaşı Sərxoş həm də Pənah Hüseynin kürəkənidir. O da böyük qardaşları İxtiyar kimi özünə məxsus yeni evdə yaşayır. Dediyinə görə, mağazası, heyvandarlıq ferması var. Hesab edir ki, bu "əngəlÉ" düşməsinin, Pənah Hüseyn faktoru öz yerində, həm də onun fermasının da rolu var, kimlərinsə onun fermasına gözü düşüb: "Elə bilirlər, ferma saxlamaq asandır..."

**Sonra o, yemin, otun, dərmanın bahalaşmasından, ətin isə əksinə, ucuzlaşmasından danışır:** "Ət düşüb 6 manata. Alan da yoxdur. Nisyə vermişik, getirib ödəyən də yox". **Məlum olur ki, Sərxoşu həbsdən çox manatın devalvasiyası daha çox qorxudur. Çünki borcları dollarladır, ona çatacaq nisyələr isə manatla. "Onu da hələ ödəsələr,- deyə o, əlavə edir.** "Əgər manat bir də ucuzlaşsa, hər şey, biz də daxil olmaqla, batdıq. Dövlət dollarla da olsa, faizsiz borc verməsə, heç nə mümkn deyil",- deyir.

**Yenə Mansurun evinə qayıdırıq. Mansurun qardaşı, xuliqanlıqda ittiham olunan Qaşqay Hüseynov ailəsi ilə birlikdə digər qardaşı Baləminin ailəsi və ata-anasıyla birlikdə yaşayırlar. Mansur yeni ev tikib, ancaq tamamlayıb köçə bilmir. Qaşqay da deyir ki, evinin fundamentini tökübü. Qismət olsa, hörgüyə başlamaq istəyir. Bu qardaşlar meyvə tədarük edib emal zavodlarına verməklə məşğuldurlar. Mansur bildirir ki, Quba şirə zavodundan onların camaatdan tədarük etdiyi narın pulunu ala bilmirlər. Adamlar da məhsullarının pulunu tələb edir:** "Bu adamlar gözünü dikmişdi həmin pula. İndi bu, alınmasa qış boyu nə edəcəklər? Biz də qalmışıq pis vəziyyətdə. Zavodlar da deyir ki, krizisdir, böhrandır, satış, maliyyə yoxdur, gözləyin. Adamlar necə gözləsin? Sərhədləri açmaq lazımdır. Dövlət tədarük məsələsini öz qarantiyasına almalıdır. Yoxsa bu böhran zavodları elə günə salıb ki, axırı yaxşı görünmür".

Ən sonda Pənah Hüseynin ittiham olunan qardaşı oğlu Vasifgildə də olduq. Pənah bəyin qardaşı 1989-cu ildə vəfat edəndə Vasifin 2 yaşı varmış. İndi atasının vəfatından sonra dünyaya göz açmış qardaşı Asif, həyat yoldaşı, anası, biri 2 yaşında, o biri 7 aylıq iki övladı ilə atadan qalma evdə yaşayır. O da yeni yurdlarda təzə evinin bünövrəsini töküb. Bir hissə hörgü də aparıb. Əgər əkin gələn il yaxşı olsa, ümid edir ki, evin damını da vura biləcək. Ən böyük arzusu bu evə köçüb qardaşı Asifi evləndirməkdir...

Eşidəndə ki, bu iş başlayandan sonra "xuliqanların" dördünün ailəsində yeni övladlar dünyaya gəlib *(iki oğlan, iki qız)* düşünürsən ki, həyat davam edir...

Bütün bu görüşlər boyu burda yazdıqlarımızdan kənarda çox şeylər qaldı. Üzə vurmasalar da, valideynlərinin, həyat yoldaşlarının nigaran baxışları, bacıların, bizim gəldiyimizi eşidib toplanmış qohumların, artıq ağılları kəsən övladlarının sifətində donub qalmış "nə olacaq?" sualı, narahatlıqları və bir də hələ nə baş verdiyini bilməyən 7 aylıq Qəhrəmanın gülüşü... Son o gülüşlər kimi olsun!

**Allah qapınızı bağlamasın Qaraqaşlının Hüseynləri...**

**❑ Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**
**Bakı-Sabirabad-Bakı**

YENİ MÜSAVAT
N 264 (6292) 27 noyabr 2015




# QHT Şurası qənaət etdiyi 360 min manatı dövlət büdcəsinə qaytaracaq

## QHT-lərin Ümumrespublika Forumu keçirildi; müqavilə öhdəliklərini pozan 89 QHT-dən 135.843 manat vəsait tutulub



**26 noyabr 2015-ci ildə Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası "Hilton" hotelində ölkə QHT-lərinin Ümumrespublika Forumunu keçirib. Toplantıda giriş sözü ilə çıxış edən Şura sədri, millət vəkili Azay Quliyev rəhbərlik etdiyi qurumun ənənəvi olaraq hər il maliyyə yardımı müsabiqəsi elan etməzdən öncə ictimai dinləmələr təşkil etdiyini bildirib: "Forumun əsas məqsədi şuranın 2016-cı il maliyyə yardımı müsabiqəsinin mövzuları ilə bağlı ictimai dinləmələr keçirmək, QHT-lərin rəy və təkliflərini öyrənməkdir".**

Şuranın 2015-ci ildə dəstəklədiyi layihələrə toxunan Azay Quliyev bildirib ki, cari ildə şuraya ayrılan vəsaitdən olduqca qənaətlə istifadə olunub. "Belə ki, QHT-lərə maliyyə yardımı fondundan, eyni zamanda Şura və Katibliyin saxlanma xərclərindən 360 min manat vəsaitə qənaət olunub və bu vəsaitin dövlət büdcəsinə qaytarılması nəzərdə tutulur. Bundan başqa, 2013-2014-cü illərdə xarici QHT-lərin layihələrinin maliyyələşdirilməsi məqsədilə ayrılan vəsaitə də xüsusi diqqətlə yanaşılıb və 1.927.788 manat növbəti illərdə istifadə olunması üçün şuranın hesabında saxlanılıb".

**Forumda çıxış edən Katibliyin icraçı direktoru Fərasət Qurbanov şuranın 2016 - cı il maliyyə müsabiqəsinin mövzuları, ictimai aktuallıq kəsb edən məsələlər, problemlərin müəyyən edilməsi və onların həlli yolları, təsvir və təqdimetmə qaydaları haqqında ətraflı təqdimatla çıxış edib. F. Qurbanov cari ildə həyata keçirilən layihələrin icra vəziyyəti və hesabatlılıq məsələlərinə də toxunub:** "Katiblik layihələrin icrasına nəzarəti daim təkmilləşdirir və QHT-lərin fəaliyyətinin qanunauyğun qurulması üçün zəruri tədbirlər görür. Təəssüf ki, əldə olunan müsbət nəticələrə baxmayaraq hələ də bir sıra QHT-lərin müqavilə öhdəliklərinin icrasında ciddi problemlər müşahidə olunmaqdadır. Şuranın Katibliyi müqavilə öhdəliyini pozan QHT-lərə qarşı sərt tədbirlər görmüş və onlar haqqında müxtəlif qərarlar qəbul etmişdir. Belə ki, 89 yerli və xarici QHT-dən 135.843 manat vəsait tutulmuşdur. 2015-ci ilin sonuna qədər bu istiqamətdə intizam tədbirləri davam etdiriləcək".

Toplantı 40-dan artıq QHT rəhbərinin çıxışı ilə davam edib. QHT rəhbərləri bir sıra təkliflər irəli sürüblər və şura rəhbərliyi bunların nəzərə alınacağını bildirib.

# Nardaranda bir qrup radikallara qarşı əməliyyat: 6 ölü

## Öldürülənlər arasında polislər də var; Daxili İşlər Nazirliyi və Baş Prokurorluq birgə məlumat yaydı: "Respublikada ictimai-siyasi sabitliyi pozmaq, təxribatlar, kütləvi iğtişaşlar, terrorçuluq aktları törətmək planlaşdırılıb"

**Noyabrın 25-də Nardaranda bir qrup radikalla polislər arasında silahlı qarşıdurma olub. Qarşıdurma haqda ilk məlumat saat 13 radələrində yayılıb. Əvvəl bildirilirdi ki, əməliyyat Nardaranda Rəhimə xanım ziyarətgahının yanında yerləşən Hüseyniyədə namaz vaxtı keçirilib və atışma baş verib. Hacı Tale Bağırzadənin tərəfdarları isə facebookda atışmanın dindarın evində baş verdiyinin yayıblar.**



### "Molotov kokteyli" və radikalların qəsəbə sakinlərinə çağırışı

Belə ki, Tale Bağırzadəni həbs etmək üçün polislər evə girərkən onun tərəfdarları silah işlədib, bu zaman qarşılıqlı atışma olub. Sosial şəbəkələrdə T.Bağırzadənin evi olduğu iddia edilən yerdən görüntülər də yayılıb. Belə bir xəbər də yayılıb ki, Nardaran qəsəbə sakini olmayan naməlum şəxs avtomatdan hara gəldi atəş açıb. Bundan sonra olay qızışıb və qan tökülüb.

Xəbərlərdə o da bildirilirdi ki, Tale Bağırov və bir neçə radikal saxlanılaraq naməlum istiqamətə aparılıb. İlkin məlumatlarda 2 nəfərin öldüyü, bir neçə nəfərin isə yaralandığı xəbər verilirdi. Virtualaz.org saytı xəbər verir ki öldürülənlər Tale Bağırzadənin bilavasitə yaxın ətrafına daxil olan Abbas Hüseyn və Fərahim Zeynalabdinoğlu adlı Nardaran sakinidir.

Yaralılar Bakının 3 saylı Klinik Xəstəxanasına aparılıb. Xəstəxanadan 2 nəfərin öldüyünü təsdiq ediblər. Xəstəxananın baş həkimi Fikrət Zeynalov bildirib ki, xəstəxanaya daxil olan yaralıların da vəziyyəti ağırdır, odlu silahdan açılan atəşlə yaralanıblar. Yaralıların hamısı gənclərdir, onlardan birinin üzərində təcili əməliyyat aparılıb. Xəstəxana polis nəzarətinə götürülüb. Hətta həkimlər də yoxlamadan keçirildikdən sonra içəri buraxılıblar.

Nardaranda baş verən silahlı insidentdən sonra bir qrup radikal şəxs "İmam Hüseyn" meydanına toplaşıb.

APA-nın məlumatında bildirilirdi ki, bir qrup radikal şəxs qəsəbəyə aparan yollara daş tökərək bağlayıb, qəsəbəyə kənar şəxslər, o cümlədən jurnalistlər buraxmayıblar. Qəsəbənin mərkəzinə keçmək istəyən ATV-nin avtomobili əzilib, əməkdaşı isə döyülüb. Meydanın ətrafına toplaşmış bir qrup şəxs armatur, lom və dəyənəklərlə silahlanıb.

Radikalların "Molotov kokteyli" hazırladığını təsdiq edən fotolar da yayılıb. Radikallar qəsəbə sakinlərini də onlara qoşulmağa tələb ediblər.

### DİN və Baş Prokurorluq birgə məlumat yaydı

Daxili İşlər Nazirliyi və Baş Prokurorluq Nardaranda baş verən silahlı insidentlə bağlı birgə məlumat yayıb. Musavat.com-a daxil olan məlumatda deyilir ki, respublikada ictimai-siyasi sabitliyi pozmağı, təxribatlar, kütləvi iğtişaşlar, terrorçuluq aktları törətməyi planlaşdıran və din pərdəsi altında fəaliyyət göstərən silahlı cinayətkar dəstə barədə Daxili İşlər Nazirliyinə daxil olmuş məlumat aparılan araşdırmalarla təsdiqlənmiş və təxirəsalınmaz əks





tədbirlərin görülməsini zəruri etmişdir.

Müəyyən olunmuşdur ki, Tale Kamil oğlu Bağırov, Elman Seydəmir oğlu Ağayev, Zülfüqar Sədrəddin oğlu Mikayılov və Əbülfəz Heydət oğlu Bünyatov dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsi, şəriət qanunları ilə idarə edilən dini dövlət qurulması məqsədilə "Müsəlman birliyi" adlı hərəkat yaratmışlar. Adları çəkilən şəxslər Bakı şəhərindən və respublikanın digər bölgələrindən özlərinə tərəfdarlar toplamış, onları müxtəlif növ odlu silah, döyüş sursatı, partlayıcı maddə və qurğularla təchiz edərək cinayətkar dəstə təşkil etmişlər. Həmçinin paytaxtın Nardaran qəsəbəsində qanunsuz yığıncaqlar keçirərək respublikanın əhalisini hakimiyyətə qarşı qaldırmağın yollarını müzakirə etmiş, bununla bağlı tərəfdarlarına göstərişlər vermiş və əhaliyə çağırış vərəqələri paylamışlar. Silahlı cinayətkar dəstənin hər bir üzvünün üzərinə düşən konkret vəzifələr, o cümlədən hakimiyyət nümayəndələrinə qarşı terror aktları törədəcək məsul şəxslər müəyyən edilmişdir.

Qeyd edilənlər nəzərə alınaraq həmin şəxslərin tutulması məqsədilə 2015-ci il noyabrın 26-da Daxili İşlər Nazirliyi tərəfindən Bakı şəhərinin Nardaran qəsəbəsində xüsusi əməliyyat keçirilmişdir. Əməliyyat zamanı polis əməkdaşlarına silahlı müqavimət göstərilərək avtomat silahlardan atəş açılmış, əl qumbarası atılmışdır. Hücum edənlərin davamlı atəşinə cavab olaraq xüsusi əməliyyat qrupu tərəfindən xidməti silahdan istifadə edilməklə cinayətkar dəstənin 4 üzvü məhv edilmiş, daha bir neçə nəfəri yaralanmışdır.

Əməliyyatın keçirildiyi ərazidə, silahlı cinayətkar dəstənin tərəfdarlarının çoxalmasına baxmayaraq, polis işçiləri öz xidməti vəzifələrini sonadək mərdliklə yerinə yetirmiş, 2 əməkdaş qəhrəmancasına həlak olmuşdur.

Hadisə yerindən maddi sübut kimi xeyli sayda avtomat silah, əl qumbarası, soyuq silahlar və s. götürülmüşdür. Cinayətkar dəstənin, Tale Bağırov başda olmaqla, 14 üzvü saxlanılaraq istintaqa təqdim edilmişdir. Fakt üzrə Baş Prokurorluq tərəfindən cinayət işi başlanılaraq istintaq aparılır.

Cinayətin bütün iştirakçılarının, o cümlədən bu silahlı cinayətkar dəstəyə köməklik edən şəxslərin müəyyən edilib tutulması və məsuliyyətə cəlb edilməsi üçün əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri həyata keçirilir.

Sabunçu Rayon Polis İdarəsinin binasının qarşısında da gərginlik yaşanıb. Polis idarəsinin qarşısındakı gərginliyin səbəbi əməliyyat zamanı həbs edilən Tale Bağırzadənin və digərlərinin orada saxlanılmasıdır. Bir qrup radikal polis binasının qarşısında toplaşmağa cəhd edib. Onlar həbs olunanların buraxılmasını istəyiblər. Daxili Qoşunların bir neçə avtobus dolu əsgəri və xüsusi təyinatlı polislər binanı əhatəyə alıb.

### Mübariz Qurbanlı Nardaran hadisələri haqda: "Bu, cəzasız qalmayacaq"

**"İctimai-siyasi sabitliyə qarşı yönələn hərəkətlər cəzasız qalmayacaq və qalmamalıdır". Bunu "Trend"ə açıqlamasında Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Nardarandakı son hadisəyə münasibət bildirərkən deyib.**

**M.Qurbanlının sözlərinə görə, hüquq-mühafizə orqanları qanuna uyğun olaraq tədbirlər keçirərkən kriminallaşmış elementlər mühafizə orqanlarına qarşı qeyri-qanuni hərəkətlərə yol veriblər:** "Nardaranda törədilmiş hadisələrə görə din pərdəsinə bürünmüş, din adı altında radikal hərəkətlərə yol verənlər günahkardırlar".

**M.Qurbanlı əlavə edib ki, bu gün bəziləri qondarma təşkilatlar yaradırlar:** "Onlar dindarlar adından çıxışlar etmək istəyirlər. Sual olunur: bu adamların din adından çıxış etməyə haqları varmı? Bir yerdə toplaşaraq dövlət quruluşumuza, konstitusiya quruluşumuza, eyni zamanda milli, dini zəmində ölkəmizdə mövcud olan sabitliyə ziyan vuran çağırışlar etməyə haqları varmı? Əlbəttə yoxdur!"

❑ **"Yeni MÜSAVAT"**

YENİ MÜSAVAT
N 264 (6292) 27 noyabr 2015

## "Azəriqazbank"ın rəhbəri çıxılmaz durumda




# Çingiz Əsədullayev ölkədən getmək istəyir-"qaçış?"

Hakimiyyət daxilindəki bir qrup bankirə namizəd olduğu 90 saylı dairədən "qələbə qazanmasına" kömək edib, iqtidarın ən yüksək düzeyində ciddi etirazları gördükdə isə dərhal verdikləri qərarın arxasından çəkiliblər; Eldar Mahmudovun işdən çıxarılmasından sonra Əsədullayevin hakimiyyət daxilindəki əleyhdarları da haqq-hesab üçün hərəkətə keçiblər...

**Eldar Mahmudovun və onun dəstəsinin ifşasından sonra mediada ən çox adı hallandırılanlardan biri də "Azəriqazbank"ın Müşahidə Şurasının sədri Çingiz Əsədullayevdir. "Azəriqazbank"da baş verən qanunsuzluqlar, neqativ hallar, müştərilərin aldadılması, qanunsuz pul köçürmələri və digər bu kimi hallar barədə demək olar ki, hər gün mətbuatda müxtəlif yazılar dərc olunur.**

Əslində deputat mandatına güvənən Ş.Əsədullayevin adı Beynəlxalq Bankda dövlətin milyardlarla manat vəsaitinin talan edilməsi üzə çıxdıqdan sonra gündəmə gəlmişdi. "Beynəlxalq Bank işi"ndə dindirilən iş adamları arasında Çingiz Əsədullayevin də adı keçirdi. Deputat-bankir yayılan məlumatları təkzib etsə də, onun məhz Beynəlxalq Bankda külli miqdarda mənimsəmə faktlarına görə hədəfə gəldiyi şübhə doğurmurdu. Bildirilirdi ki, Ə.Əsədullayevin də "maliyyə xəyanətlərində" iştirakı olub, Mahmudov-Hacıyev çetesi külli miqdarda pulları onun bankının vasitəsilə ölkədən çıxarıb. Fevralda başlayan "kredit oliqarxları" həbsləri Ç.Əsdullayevdən "yan keçdi". Çünki o zaman onun deputat toxunulmazlığı və arxasında MTN şefi kimi məmur dayanırdı.

Çingiz Əsədullayevin bankı haqda sensasion ittihamlar hələ arxası "MTN dağına" söykənəndə də vardı. Ötən ilin iyununda Kaliforniya Universitetinin ("KrebsOnSecurity") onlayn apteklərlə bağlı apardığı araşdırmalarında bəlli olmuşdu ki, internet üzərindən qanunsuz dərman satışı ilə məşğul olan onlayn apteklərin gəlirləri "tərəfdaşlıq" proqramları vasitəsilə əsasən "Azəriqazbank"da "yuyularaq" nağdlaşdırılıb. Oxşar iddia ilə Kaliforniya Universitetinin araşdırmaçı-mütəxəssisi Deymon Mak-Koy da çıxış etmişdi. Lakin nədənsə, həmin vaxt nə hüquq-mühafizə orqanları, nə Maliyyə Nazirliyi bu faktları araşdırmadı. Bank rəhbərliyi də ittihamlarla bağlı heç bir açıqlama vermədi.

E.Mahmudovun "vurulmasından" sonra isə Ç.Əsədullayevə yönəlik ittihamlar daha da artdı. Öncə İslam Əməkdaşlıq Təşkilatının Avropa İttifaqı yanındakı keçmiş səfiri Arif Məmmədov çirkli pulların yuyulması ilə bağlı ittihamları təsdiqləyən məlumat yaydı. O bildirdi ki, Ç.Əsədullayev Cahangir Hacıyevlə bərabər dövlətin külli miqdarda vəsaitini mənimsəyib və tələb olunan zaman bu pulları geri qaytara bilməyib. Sitat: **"Mənimsənən pulların bir qismi isə xaricə qaçırılıb - bu işdə ona başqa bir qohumu - "Azəriqazbank"ın sahibi Çingiz Əsədullayev kömək edib".**

E.Mahmudov işdən çıxarılan zaman Ç.Əsədullayevin başı parlament seçkilərinə qarışmışdı və o, mandat almaq üçün bu dəfə daha ciddi səy göstərirdi. Məlumata görə, Ç.Əsədullayevə hələ ki adı açıqlanmayan hakimiyyət daxilindəki bir qrup namizəd olduğu 90 saylı dairədən "qələbə qazanmasına" kömək edib. Çünki 10 ildir deputat olan Əsədullayevə toxunulmazlıq mandatı indikindən daha çox lazım idi. Ç.Əsədullayevin adının yekun siyahıya düşməsi iqtidarın ən yüksək düzeyində ciddi etiraz doğurub. Onu dəstəkləyən qrup dərhal verdikləri qərarın arxasından çəkilib. "Əsədullayevin guya təmiz qələbə qazanmasını" iddia etmələri isə daha sərt reaksiya doğurub. MSK Ç.Əsədullayevin nəticələrini ləğv etmək üçün dərhal hərəkətə keçib. Ç.Əsədullayev "əgər hökumət, MSK bu dairədə seçkinin nəticələrinin ləğv edilməli olduğunu düzgün hesab edirsə, deməli, belə olmalıdır. Mən bu qərarı heç bir halda şübhə altına almaram" desə də, bu qərardan bərk təlaşlıdır. Redaksiyamıza daxil olan məlumata görə, Ç.Əsədullayev ölkəni tərk etmək istəyir. Ç.Əsədullayevin ölkədən çıxmaq üçün bir neçə "arqumenti" də var. Yorulub, müalicə olunmaq istəyir və sair... Amma onun ölkədən çıxmasına hansısa qadağa qoyulub-qoyulmaması bəlli deyil.

Xəbərdə deyilir ki, yaxın dostu və himayəçisi E.Mahmudovdan sonra onun hakimiyyət daxilindəki əleyhdarları da hərəkətə keçiblər. Məlumdur ki, "Azəriqazbank" əsasən tikinti sektoruna kreditlərin ayrılması və işlərin icrasına nəzarətlə məşğul olub. Bu məqsədlə o, əsasən özünə, E.Mahmudova və C.Hacıyevə yaxın tikinti şirkətlərinə pul ayırıb. Ç.Əsədullayev himayə etdiyi tikinti şirkətləri ilə əlaqəyə girərək bəzi əməliyyatlar həyata keçirib ki, bundan da bir çox məmurlar ziyan çəkib. Tikinti sektorunda ciddi paya sahib olan digər oliqarx-məmurlar bir neçə dəfə Ç.Əsədullayevdən tələb edib ki, rəhbəri olduğu bank "özünü yığışdırsın", yalnız öz çevrəsinə deyil, digər məmurlara da məxsus tikinti məxsus şirkətləri ilə işləsin. İddialara görə, Ç.Əsədullayev E.Mahmudovun göstərişi və məsləhəti ilə hakimiyyətdəki iri məmurların tikinti biznesinə kredit ayırmayıb, MTN şefinin və C.Hacıyevin bu sahədə monopolistə çevrilməsinə şərait yaradıb. İndi isə himayəçilərini və mandatını itirən Ç.Əsədullayev həmin adamların təzyiqi ilə üzləşib. Bankir "mənə deyirdilər vermə, mən nə edəydim?" kimi sözlərlə özünə haqq qazandırmaq istəsə də, vəziyyəti düzəldə bilməyib. Məlumata görə, MTN generalitetinin sahibkarlardan reket yolu ilə alınmış pulların "yuyulmasında" "Azəriqazbank"ın rolu olduğu barədə ciddi şübhələr var. İstintaq bu istiqamətdə işləyir və hələ bir neçə sahibkar zərərçəkmiş kimi tanınıb. Qeyd edək ki, bank çox saylı müasir bank xidmətlərini, o cümlədən hesablaşma-kassa xidmətləri, istehlak və biznes kreditləri, korporativ kreditlər, depozitlər, plastik kartlar, pul köçürmələri, sənədli əməliyyatlar, səyahət çekləri və kommersiya çekləri xidmətlərini göstərir.

Mənbə onu da bildirib ki, Ç.Əsədullayevin mandatını itirdikdən sonra bankda səhmlərinin sayını artırmasını bəzi dairələr "blef" hesab edir. **"Çünki bankın pay bölgüsündə ciddi dəyişiklik kimi təqdim edilən xəbərdə Çingiz Əsədullayevin payını 23,096%-dən 23,270%-dək artırdığı bildirilir. Yəni bu da ciddi bank sahibi üçün çox cüzi rəqəmdir"** deyə, mənbə bildirib. Maraqlıdır ki, minoritar səhmdarların sayı 65-dən 61-ə enib, onların bankın kapitalındakı ümumi payı isə 25,637%-dən 31,463%-dək artıb. Anlaşılan budur ki, 4 minoritar səhmdar payını satıb. Amma kimlərdən söhbət getdiyi bilinmir. Bildirilib ki, minoritar səhmdarların da paylarını C. Əsədullayev alıb. Digər səhmdarların kapitalda payı dəyişilməz olaraq qalıb. Belə ki, Beynəlxalq Maliyyə Korporasiyası kapitalda 17,5%, "Kazimir Partners" şirkəti 10%, Yusifov Fərzulla (Müşahidə Şurasının üzvü) 17,767%-lik paya malikdirlər.

Ehtimal etmək olar ki, satılan bank səhmləri MTN generalitetinə və ya onlara yaxın şəxslərə aid olub. Hər halda, indi "Azəriqazbank"da səhmdarların öz paylarını satması Ç.Əsədullayevə yaxşı perspektiv vəd etmir. Mandatını itirən Əsədullayev bankını və ya azadlığını necə, itirməyəcək ki?

❑ "Yeni Müsavat"

## Ramil Usubovdan yeni təyinat


Ramil Usubov

**Daxili İşlər Nazirliyində növbəti kadr dəyişikliyi həyata keçirilib. Azvision.az xəbər verir ki, daxili işlər naziri general-polkovnik Ramil Usubovun müvafiq əmri ilə Yasamal Rayon Polis İdarəsinin rəis müavini, polkovnik-leytenant Cavid Muradov Mingəçevir Rayon Polis İdarəsinin rəisi təyin edilib.**

Qeyd edək ki, Mingəçevir Rayon Polis İdarəsinin rəisi Ələsgər Bədəlov pensiya yaşına çatdığına görə vəzifəsindən uzaqlaşdırılmışdı. Neftçala rayonuna yeni təyin olunmuş polis rəisi, polkovnik-leytenant Vüsal Şəbəndiyevin nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulmasına qarşı ilk tələbkarlığı polis işçilərindən başlaması rayon sakinləri tərəfindən rəğbətlə qarşılanıb. Virtualaz.org-un bölgə müxbiri xəbər verir ki, Neftçala Rayon Polis Şöbəsinin bir neçə əməkdaşına məxsus şəxsi avtomobillər pərdə və plyonkalı olduğuna, zavod konstruksiyaları dəyişdirildiyinə görə cərimə meydançasına salınıb.

## Əli İnsanovun məhkəməsi baş tutmadı


Əli İnsanov

**Noyabrın 26-da Ali Məhkəmədə həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanovun kasasiya şikayəti üzrə məhkəmə prosesi keçirilib. Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, prosesə hakim İnqilab Nəsirov sədrlik edib. Məhkəmə prosesi qeyri-müəyyən vaxta qədər təxirə salınıb.**

Məhkəmə prosesi zərərçəkənlərə prosesdə iştirakla bağlı göndərilən bildirişlərin ünvanına çatıb-çatmamasının müəyyənləşdirilməməsi üzündən təxirə salınıb.

Xatırladaq ki, sabiq səhiyyə naziri 2005-ci ildə parlament seçkisi öncəsi dövlət çevrilişinə cəhdə hazırlıq ittihamı ilə həbs edilib, daha sonra iqtisadi cinayətlərdə təqsirli bilinib.

2007-ci ilin aprel ayında Ə.İnsanov korrupsiya, vəzifə səlahiyyətlərini aşma ittihamı ilə əmlakı müsadirə olunmaqla, 11 il müddətinə azadlıqdan məhrum edilib. Bakı Apelyasiya Məhkəməsi birinci instansiya məhkəməsinin hökmünü qüvvədə saxlayıb. Sabiq nazir Bakı Apelyasiya Məhkəməsinin qərarından kasasiya şikayəti verib.

## MTN-in xanım generalı ev dustağıdır


Natəvan Mirvətova

**Milli Təhlükəsizlik Nazirliyi (MTN) Əməliyyat-Texniki İdarəsinin sabiq rəisi, general-mayor Natəvan Mirvətova barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilib.**

Bu barədə virtualaz.org-a hüquq-mühafizə orqanlarından məlumat verilib.

Qeyd edək ki, Baş Prokurorluğun yaydığı məlumatda MTN-in 21 sabiq əməkdaşının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edildiyini bildirilir. 19 şəxs barəsində həbs-qətimkan tədbiri, 1 nəfər barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilib, istintaqdan yayınan 1 şəxs barəsində isə həbs-qətimkan tədbiri seçilməklə axtarış elan edilib.

Milli Təhlükəsizlik Nazirliyi əməkdaşlarının törətdiyi cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 57 nəfər zərər çəkmiş şəxs qismində tanınıb. Onlara dəymiş ziyanın ümumi məbləğinin on milyonlarla manat olduğu müəyyən edilib.

YENİ MÜSAVAT
N 264 (6292) 27 noyabr 2015

# "Rus cəmiyyəti "psix" duruma düşüb"

## Hikmət Hacızadə: "Azərbaycan Türkiyənin yanında olmalıdır..."

**Türkiyə-Rusiya arasındakı münasibətlərin kritik həddə çatması ölkəmizdə də ciddi narahatlıqla qarşılanıb. Xüsusilə şimal qonşumuzun bu məsələdəki mövqeyi, Qərb dövlətlərinin Türkiyənin yanında olması proseslərə məxsusi çalarlar verib. Son günlərdə yaşananları Elçibəy hakimiyyəti dövründə Azərbaycanın Rusiyada səfiri işləmiş Hikmət Hacızadə ilə dəyərləndirdik.**

***- Hikmət bəy, Türkiyə-Rusiya münasibətlərinin kəskinləşməsi ilə bağlı ölkəmizdə qardaş ölkənin üzr istəməsi kimi fikirlər səslənir. Bu fikirlərə münasibətiniz necədir?***

- Heç bir üzr istəmək lazım deyil. Ola bilsin ki, üzr istəmək təklifini irəli sürən şəxslərin ya proseslərdən xəbərləri yoxdur, ya da kiminsə sifarişini yerinə yetirirlər. Türkiyə dəfələrlə Rusiyaya nota vermişdi ki, sizin uçaqlarınız bura gəlir, bombalayır. Bu son bir ayda dəfələrlə olub. Sonda belə hadisələr baş verdi. Beynəlxalq hüquq, sərhədlər var. Necə olmalıdır? Oradakı dinc əhalini nə üçün qırırsan? O bölgədə İŞİD yoxdur. Rusiya da deyir ki, İŞİD-lə mübarizə aparıram. Türkmənlər həm İŞİD-dən, həm Suriya ordusundan özlərini qoruyurlar. Onları nə üçün bombalayırsınız? Üzr diləmək məsələsi ilə qəti razı deyiləm.

***- Azərbaycanın mövqeyi bu məsələlərdə, sizcə, necə olmalıdır?***

- Birmənalı Azərbaycan Türkiyənin yanında olmalıdır. Çünki Türkiyənin mövqeyi tamamilə haqlıdır. Beynəlxalq hüquq normalarına uyğundur. Burada heç bir tərəddüd yoxdur.

***- Rusiya ölkəmizə daha çox təsiredici qüvvəyə malikdir. Türkiyənin yanında olsaq, bizi hansı təhlükələr gözləyir?***

- Türkiyənin yanında baxır necə oluruq. Dəstələrimizi ora vuruşmağa göndərməməliyik. Sadəcə, bu və ya digər diplomatik formada münasibət bildirə bilərik. Narahatçılığımızı göstərməliyik. Məsələnin nə yerdə olduğunu başa düşdüyümüz tərzdə büruzə verməliyik. Bütün bunların müxtəlif formaları var.

***- Son 100 illik tarixə nəzər salsaq, Türkiyə-Rusiya münasibətləri normal olub. Amma indi tamam əks vəziyyətdir. Qarşıda bizi yeni dünya savaşı gözləmir ki?***

- Burada xristian-müsəlman davasından söhbət getmir. Rusiya xristian ölkəsi deyil. Türkiyə də tam müsəlman dövləti deyil. Burada beynəlxalq hüquq, humanitar, diktatura məsələsi var. Rusiya o bölgədə mövqeyini saxlamaq istəyir. Aralıq dənizində bazasını qorumağa çalışır. Son həddə Bəşər Əsəd rejimini qorumaq istəyir. Bu yerdə deyərlər ki, get öz vəziyyətini düzəlt, sonra gəl Aralıq dənizinə. Rusiya sovetdən qalmış mövqeyini qorumaq və genişləndirmək fikrinə düşüb. Burdan Ukrayna alveri edir. Ukrayna məsələsinin həllində müəyyən şərtlər irəli sürür. Daha dəqiq desək, bazarlığını edir. Gərək yerində oturdasan ki, ağılları başlarına gəlsin. Psix halına düşmüş cəmiyyət belə reaksiyalar verir. Söz deyirsən, eşitmirlər, öz dediklərini deyirlər. Təəssüf ki, bu böyük ölkə qeyri-adekvat davranışlara malikdir. Bu baxımdan burada heç bir müsəlman-xristian ədavəti görmürəm.

***- Belə fikirlər səslənir ki, Ərdoğan öz ailə maraqları naminə bu addımı atdı. Neft məsələsini əsas gətirirlər.***

- Tamamilə yanlış fikirlərdir. Ola bilsin ki, neft göndərilir, satılır. Bu məsələnin 3-5%-dir. Orada böyük strateji məsələlər var. Suriya kimi ölkənin gələcəyi həll olunur. Qardaş türkmən xalqının taleyi var. Azərbaycan xalqından bu məsələdə əzab çəkən türkmənlərə dəstək lazımdır. Əslində onlar azərbaycanlıdır. Bizim dilimizdə danışırlar. Şairimiz Füzuli də onlardandır. Onlara humanitar yardım göndərsək, təqdirə layiq olar.

***- Sizcə, rusları birdən-birə qıcıqlandıran nə oldu?***

- Rus cəmiyyəti psixi duruma düşüb - necə ki, vaxtilə almanlar Hitlerin vaxtında bu duruma düşmüşdülər. Onlara elə gəlirdi ki, sözləri haqdır, bütün dünya bunlara düşməndir, dünya Baykal gölünü bunlardan alıb içmək istəyir. İndi də ruslar eyni durumdadırlar. Əslində bir təyyarə hadisəsinə görə normal cəmiyyətlərdə bu qədər səs-küy olmamalı idi. Bunlar da belə dəli olublar.

***- Türkiyədə keçirilən G20 sammitindən sonra bu hadisələrin baş verməsi təsadüfdürmü?***

- Hesab edirəm ki, sammitlə heç bir bağlılığı yoxdur. Rusiyanın əvvəlcədən planlaşdırdığı siyasətdir. Əvvəllər də rus bu siyasəti həyata keçirirdi. Sadəcə, deyə bilərik ki, sammit bunlara təsir etmədi, orada deyilən sözlər bunlara girmədi. Ümumiyyətlə, bunlara sözün, fikrin təsiri yoxdur.



## "Rusiya yerində oturdulacaq"

***- Türkiyənin baş verənləri ABŞ-la razılaşdırması barədə fikirlər, sizcə, doğrudurmu?***

- Ola bilər. Amerika Türkiyənin müttəfiqidir.

***- Demək istəyirsiniz ki, müharibə olarsa, Qərb Türkiyənin yanında olacaq?***

- Bəli. Qərb Türkiyənin yanında olduğunu dəfələrlə sözdə deyib. Yaxınlarda NATO yığıncağı olacaq. Bu məsələni müzakirə edəcəklər. Hələ ki Qərbdən Türkiyəyə dəstək mesajları eşidirəm.

***- Hikmət bəy, bu proseslər hara qədər gedəcək?***

- Rusiya geri çəkilməsə, proseslər onların məğlubiyyətinə qədər uzanacaq. Həm Suriya, həm də Ukraynada. Ola bilsin ki, Qarabağ məsələsində də. Çünki Rusiya özündən 16 dəfə böyük qüvvə ilə baş-başa gəlir. Qərb 17 dəfə güclüdür. NATO, uçaqları, insanları, silahları və s. Yaponiya İkinci Dünya müharibəsində ABŞ-ın bazasını dağıtdı. Bununla ABŞ-la müharibəyə başladı. O vaxt Amerika Yaponiyadan 11 dəfə güclü idi. Soruşmaq ayıb olmasın, yapon qardaş, özünü hara soxursan? Qarşı tərəf 11 dəfə güclüdürsə, əzəcəklər, bir sillə də vurub gedəcəklər. Yaponiyanı əzib adam etdilər. İndi də rusları belə edəcəklər.

***- Rus xalqını digərlərindən fərqləndirən ən başlıca xüsusiyyət müharibəyə meylli olmasıdır. Bu rusların avantajıdır, yoxsa dezavantajı?***

- Əlbəttə dezavantajdır. Yaradıcılığa, işə, xoş addımlara meylli olmaq lazımdır. Müharibə XXI əsrdə heç kimə lazım deyil. Müharibə ilə ailə dolandırmaq zamanı çoxdan keçib. Rusların şüuru orta əsrlərdə qalıb. Onların müharibə edəcəyik, qazanacağıq, işğal olunmuş torpaqlardan gəlirlər əldə edəcəyik kimi fikirləri davam edir. Bu fikirlər çoxdan bitib, amma bunlarda hələ də davam edir.

***- Putin G20-dəki çıxışında İŞİD-ə qarşı mübarizədən danışmışdı. Mümkün idimi ki, bu məsələlər sammitdə həllini tapsın?***

- Problem ondan ibarətdir ki, Rusiya sammitdə səmimi deyildi. Putin əsas məqsədlərini demədi. Rusların ideyası İŞİD-lə mübarizə deyil. Onların ideyası Bəşər Əsəd rejimini saxlamaqdır. Suriyadakı bazalarını saxlamaq istəyirlər. Məhz buna görə türkmənləri qırırlar. Əsədi saxlamaq, terrorla mübarizə deyil. Deyirlər ki, İŞİD-i vururduq, Türkiyə bizi vurdu. Orada İŞİD yoxdur. İŞİD tamam başqa bölgədədir.

***- Çeçen rəhbəri Kadırov türkləri açıq şəkildə təhdid etdi.***

- O, bambılının biridir.

***- Türkiyə XİN başçısı Çavuşoğlu Azərbaycana səfərə gəldi. Hadisələrin qızğın vaxtlarında bu səfərin pərdəarxası məqamları varmı?***

- Türkiyə Azərbaycanı yaxın millət, dövlət və müttəfiq kimi görür. Gələcəklər, bəlkə də Azərbaycandan dəstək istəyəcəklər. Ola bilsin, diplomatik və mənəvi dəstək istəyəcəklər. Başqa xırda məsələlər də həll oluna bilər. Amma düşünürəm ki, əsas müzakirə mövzusu son günlərdəki hadisələr olacaq. Çavuşoğlu Türkiyə hökumətinin mövqeyini başa salacaq, dəstək istəyəcək.

***- Azərbaycan hakimiyyətinin Rusiyaya yaxın olduğunu düşünsək, sizcə, hansı addımlar atılacaq?***

- Azərbaycan çalışacaq ki, danışmasın. Keçmişə baxsaq bunu görərik. Nə o tərəfə, nə də bu tərəfə danışmayacaq. Bəlkə də nələrsə dəyişəcək. Bundan əvvəl problem o idi ki, mövqe bildirmirdik, susurduq, neytral mövqedə qalırdıq.

***- Susqun mövqe bizə sərf etmirmi?***

- Nə vaxta qədər susacağıq? İndi susacaqsan, sonra səni əzəndə digərləri susacaq. Bunların hamısı bir yerə yığılır. Hər şeyin davamı var. Onları da düşünmək lazımdır. Onlar vuruşsun, mən susum. Olmaz axı. Səni də vuranda, türklər susanda necə olacaq? Bunlar çox qəliz məsələlərdir.

***- Dağlıq Qarabağ probleminin həlli istiqamətində bu proseslər mənfi, yoxsa müsbət təsir edəcək?***

- Ancaq müsbət təsir edəcəyini görürəm. Çünki Rusiya özünü saxlamasa, müharibə genişlənəcək. Nəticədə şimal qonşumuz yerində oturdulacaq. Ondan sonra Rusiyanın Ermənistanı dəstəkləmək imkanları azalacaq. Ondan sonra çox şey dəyişə bilər. Əsas Rusiyadır. Bu müharibə onu zəiflətsə, bizim üçün də yaxşı olar. Qarabağı bizdən rusların aldığı məlumdur. Millət bunu dərk etməlidir. Tez-tez ABŞ və digər dövlətləri söyürlər. Ermənistanda Rusiya ordusu var. Qarabağda rus təlimatçıları durur. Rusiya düşmən ölkəyə silah-sursat verir. Rusiya zəifləsə, Qarabağ məsələsinə yalnız müsbət təsiri ola bilər.

***- İranın Rusiyanın yanında olacağı qaçılmazdır. Müharibə olarsa, Cənubi Azərbaycan məsələsinin taleyi gündəmə gələ bilərmi?***

- Bu çox qəliz və uzaq məsələdir. Böyük müharibə olarsa, İranda parçalanma ola bilər. Amma ora qədər proseslərin uzanacağını görmürəm. Gərginlik o səviyyəyə hələ də çatmayıb.

***- Türkiyə, yoxsa Rusiya müharibəyə daha hazırlıqlı görünür?***

- Türkiyə tək deyil. Rusiya isə müharibəyə hazır deyil. Onlar çox zəifdir. Böhran yaşayırlar. Əvvəllər əllərində pul var idi. İndi o da yoxdur. Rusiya ondan 16 dəfə böyük alyansla qarşılaşır. Burada hansı hazırlıqdan söhbət gedə bilər? Putinin də xəstəliyi dərinə gedib. Açıqlamalarında bu sezilir.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 264 (6292) 27 noyabr 2015

# Hüquq müdafiəçisi əfv ümidlərindən danışdı

## Mirvari Qəhrəmanlı: "Siyasi məhbuslarımızın böyük bir qismi azad oluna bilər"

**Həbsdə olan Sülh və Demokratiya İnstitutunun (SDİ) rəhbəri Leyla Yunusun azadlığa buraxılacağı ilə bağlı xəbərlər dolaşır. Noyabrın 12-də hüquq müdafiəçisinin həyat yoldaşı Arif Yunusun məhkəmə zalından azad edilməsi bu ümidlərin yaranmasına səbəb olub.**



Dekabrın 7-də Apelyasiya Məhkəməsində L.Yunusun növbəti prosesi keçiriləcək. Həmin gün SDİ rəhbərinin azad ediləcəyi haqda iddialar var. A.Yunusun səhhəti ilə bağlı barəsindəki həbs-qətimkan tədbirinin dəyişdirildiyini, L.Yunusun da səhhətinin ağır olduğunu nəzərə alsaq, oxşar qərar gözləniləndir. Xüsusilə son günlərdə xarici təşkilatların siyasi məhbuslarla bağlı hakimiyyət qarşısında qoyduqları tələblər qadın məhbusun azad olunacağı barədə ehtimalları artırır.

**L.Yunusun vəkili Elçin Qəmbərov isə məhkəmədən müsbət qərar gözləmir:** "Bu barədə bizə də çoxsaylı xəbərlər gəlir. Amma mənim və Leyla xanımın mövqeyi bundan ibarətdir ki, biz müsbət heç nə gözləmirik. Bu fikrimiz onunla bağlıdır ki, son bir ildə çoxlu sayda əfv gözləyənlər, gözləri yolda qalanlar var. Açığı, ümid etməyimizə əsas görmürəm. Bu barədə gəzən söz-söhbətləri zaman göstərəcək. İstək başqadır. Təbii ki, biz də Leyla xanımın azad olunmasını arzulayırıq, amma ümid etmirik. Əgər səhhəti ilə bağlı qərar verilsəydi, bu bir il öncə olardı. Leyla xanımın xəstəliyi bugünkü, dünənki xəstəlik deyil. Bir ildən çoxdur ki, o, bu xəstəlikdən əziyyət çəkir. Arif Yunusla bağlı qərarın Leyla xanıma da tətbiq olunacağı inandırıcı görünmür. Sonuncu məhkəmədən sonra Leyla xanımla müəyyən təmaslarım olub. Durumu yenə də ağırdır. Hazırda dekabrın 7-də keçiriləcək məhkəmə prosesinə hazırlaşırıq".

**Leyla Yunusun həmkarı Mirvari Qəhrəmanlı bildirdi ki, SDİ rəhbəri azad olunmasa, ağır fəsadlar yaranar:** "Hüquq müdafiəçisi anlayışı elədir ki, həbsdə məhbusların qalmasını istəmərik. Xüsusilə qadınların. Leyla xanım səhhəti ilə bağlı çoxsaylı əməliyyatlar keçirib. Həbs şəraitində onun müalicəsi çox çətindir. O, həbsdən azad olunmasa, ağır fəsadlarla üzləşə bilər. Prezident bu barədə qərar verə bilər. Təkcə Leyla Yunusun yox, siyahıda olan siyasi məhbusların hamısının azad olunması ehtimalları var. Məhkəmənin qanunsuz qərarları ilə həbsə məhkum olunan insanlar azad edilməlidir. Arzu edərdim ki, Apelyasiya Məhkəməsi Leyla Yunusu azad etsin. Arif Yunusa tətbiq olunan qərar Leyla Yunusun timsalında haqsız yerə həbsdə olan bütün siyasilərə şamil olunsun. Səhhətləri ağır olan məhbuslarımız çoxdur. Yeni ildə ümid edirik ki, siyasi məhbuslarımızın böyük bir qismi azad olunacaqlar. Xarici təşkilatların nümayəndələrinin ölkəmizə səfərləri barədə bizdə də məlumat var. Hakimiyyətlə siyasi məhbuslar məsələsi ilə bağlı danışıqlar aparırlar. Amma nəzərə alaq ki, Arif Yunus azad olunarkən, hakimiyyətlə heç bir danışıqlar aparılmamışdı. Ölkə daxilində qəbul edilən qərar idi. Amma belə görüşlərin müsbət yöndə müəyyən təsirləri ola bilər".

Xatırladaq ki, Leyla Yunus ötən il iyulun 30-da həbs edilib. Onun həbsindən bir həftə sonra həyat yoldaşı Arif Yunus həbs edilmişdi. Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə Leyla Yunus 8 il yarım, Arif Yunus isə 7 il müddətinə azadlıqdan məhrum edilmişdi. Noyabrın 12-də Apelyasiya Məhkəməsi Arif Yunus barəsindəki qərarı ev dustaqlığı ilə əvəz edib.

❑ **Cavanşir ABBASLI**

# Xaçmazdakı həbslərin İŞİD-lə nə əlaqəsi?

## Əməliyyatın Milli Təhlükəzilik Nazirliyi və ya Daxili İşlər Nazirliyinin keçirməsi haqda hər hansı bir məlumat yoxdur

**Xaçmazda Suriyada döyüşərək geri dönmüş şəxslər həbs olunub. Bu haqda redaksiyamıza daxil olan məlumatda bildirlir ki, bu il oktyabrın 18-dən 19-na keçən gecə xüsusi əməliyyat zamanı 10-a yaxın rayonun Köhnə Xaçmaz kənd sakini tutularaq naməlum istiqamətə aparılıb. Əməliyyatı hansı qurumun - Milli Təhlükəzilik Nazirliyi və ya Daxili İşlər Nazirliyinin keçirməsi haqda hər hansı bir məlumat yoxdur.**




Redaksiyamıza daxil olan məlumatda qeyd olunur ki, tutulanlar sırasında vaxtilə "Yeni Müsavat"a açıqlama vermiş Anar Mahmudov da var. 2013-cü il sentyabrın 8-də qəzetimizdə "Xaçmazlı fəhlə Bəşər Əsədə qarşı..." sərlövhəsi altında dərc olunan reportajda Suriyada döyüşən azərbaycanlılardan söhbət açılırdı. (http://musavat.com/news/gundem/xachmazli-fehle-besher-esede-qarshi_163676.html)

Onlardan 10-a yaxınının Xaçmazın Köhnə Xaçmaz kənd sakinləri olduğu, onlardan biri olaraq döyüşlərdən yaralanaraq qayıdan A.Mahmudovun fikirləri diqqətə çatdırılırdı.

Maraqlıdır ki, həmin vaxt A.Mahmudovla müsahibə "Yeni Müsavat"da dərc edilsə də, hüquq-mühafizə orqanlarının diqqətini cəlb etməmişdi.

A.Mahmudov və digərlərinin həbs olunma tarixi də diqqət çəkir. Məsələ burasındadır ki, bu il oktyabrın 17-də Eldar Mahmudov milli təhlükəsizlik naziri postundan çıxarılıb. Bundan sonrakı günlərdən başlayaraq ölkə boyu xaricdə qeyri-qanuni hərbi birləşmələrin tərkibində döyüşmüş şəxslər müəyyən edilərək həbs edilir. Bu hərəkətlilik E.Mahmudovun radikal dini qruplaşmalarla ilişkiləri haqda mətbuatda yayılan məlumatlarla üst-üstə düşür.

**Belə ki, JAM.az bir qədər əvvəl tirajladığı xəbərlərdən birində deyilirdi. Sitat:** "Məsələn, 2013-cü ilin dekabr ayında Sumqayıtdakı "Soltan" kafesində baş vermiş 2 vəhhabi dəstəsi arasında qanlı atışma da məhz bu "razborka"nın təzahürlərindəndir. Hələ həmin vaxt məsələni araşdırmağa cəhd etdiyimizdə polis orqanlarından belə bir məlumat sızdırılmışdı ki, atışmanı törədən qrup haqda əvvəlcədən məlumat olsa da, prosesə müdaxilə etməmək göstərişi məhz MTN-dən gəlibmiş".

"Məhz bu səbəbdəndir ki, bu barədə məlumat əldə edən DİN əməliyyatlar keçirərək, ölkənin təhlükəsizliyinə təhdid olan qruplaşma üzvlərini həbs etsə də, sonradan MTN-in dəstəyi ilə onlar azadlığa buraxılır. Bu möcüzəli "xilas"ın ən bariz nümunəsi isə evində gizli toplantı keçirən, silah-sursat aşkarlanan, hüquq-mühafizə orqanları tərəfindən həbs olunan Zöhrab Şıxəliyevin 6 aydan sonra azadlığa buraxılması idi. O, MTN-in gözü qarşısında Sumqayıtda özünə villa adıyla qeyri-qanuni məscid inşa etdirmişdi. Ancaq həmin vaxt həbs olunan Zöhrab Şıxəliyev sonradan MTN-in başbilənlərinin sayəsində azadlığa çıxa bildi", deyə, saytın xəbərində bildirilirdi.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Bizdən daha olmayacaq...



**Hüseynbala SƏLİMOV**

**Bəlkə də gülməli görünəcək... Bəlkə də yetərincə anlaşılmayacaq. Amma eşidəndə ki, dünyada cəmi üç kərgədan qalıb, bu xəbər məni yaman tutdu və özüm də hiss etmədən xəfif bir kədər bürüdü məni....**

Bilirsinizmi niyə? Heç deyən yoxdur ki, bu dünyada kərtənkələlərin, siçovulların, nə bilim, tülkülərin nəsli tükənmək üzrədir. Yox, bunu deyən yoxdur - bu dünyada kərtənkələlər çoxalıb artır, kərgədanların nəsli isə artıq kəsilmək üzrədir...

Bəli, böyük heyvanların dərdi də böyük olur. Lap böyük adamlar kimi... Gəl, heç bunun fərqində olan varmı? Yoxdur, hamıya kərgədanların özü yox, onların buynuzu lazımdır. Necə ki, insan cəmiyyətinə bəzi insanların özləri yox, onların musiqisi, yazısı, rəqsi, gülüşü lazımdır, təkcə onların özləri lazım deyil...

Mən bu yazını yazdığım gün həm də başqa bir detalla maraqlı idi. Bəli, nisbilik nəzəriyyəsinin yaranmasından düz 100 il keçirdi. Mən elə bir kəşf və elə bir ixtira tanımıram ki, insanlar onun yubileyini qeyd etmiş olsunlar. Bəli, bəzi cəhdlər əvvəl də vardı. Amma insanlar onların mahiyyətinə o qədər də varmırdılar - məsələn, deyirdilər ki, bu gün radio ixtira olunub... Vəssalam. Di gəl, Rusiya qəzetlərindən biri nisbilik nəzəriyyəsinin yaranmasına ayrıca buraxılış həsr etdi...

Bəli, zaman keçdikcə biz də ucalırıq. Eynşteynin və nisbilik nəzəriyyəsinin səviyyəsinə qalxırıq. İndi nəzəriyyənin müəlliflik məsələsi də, elə nəzəriyyənin özü də daha müdrikcəsinə, daha böyük ürək açıqlığı ilə yozulur və əvvəlki qara notlar bir qədər arxa plana keçir...

Mən indi nisbilik nəzəriyyəsi və Eynşteyn haqqında yazmayacam. Hərçənd ki, başqa bir vaxt belə bir fürsəti əldən verməzdim...

Amma yazının əvvəlini kərgədanlar haqqında bir-iki kəlmə ilə başladım. Bəli, indi böyük kəşflərə, hətta adamın başını gicəlləndirən nəzəriyyələrə baxmayaraq daha Eynşteynlər yoxdur. Ola bilsin, kimsə bu fikri bölüşməyəcək. Ona görə ki, bu gün insanlar Eynşteynin ömrünün yarısını sərf etdiyi, amma həll edə bilmədiyi problemlərin həllində də çox irəliləyiblər. Olsun. Amma mənə yenə də elə gəlir ki, daha Eynşteynlər yoxdur və yaxud da belələrindən dünyada iki-üç nəfər qalıb - lap dünyada üç kərgədan qalan kimi...

Alimlərə çox epitetlər yapışdırırlar. Amma çox az alim haqqında mütəfəkkir sözünü işlədirlər. Bəli, o, təkcə fizik deyildi, mütəfəkkir idi, indi beləleri yoxdur və yaxud da ki, iki-üç nəfərdir - lap üç kərgədan kimi...

Nədən mən Eynşteyn haqqında ciddi bir şey yazmadım? Bilirsinizmi, insan nisbilik nəzəriyyəsi haqqında düşünəndə insan olduğuna görə qürur duyur. Gəl ki, eşidəndə ki, həmin insanların ucbatından dünyada cəmi üç kərgədan qalıb, əksinə olur, insan olmağından peşmanlıq duyursan...

Həm də bu detal mənə çox simvolik göründü. Elə hey beynimdən keçirirdim ki, bəli, üç kərgədan, bəli, üç kərgədan... Sonra da özümdən asılı olmadan "üç müxalifətçi", "üç jurnalist" deyirdim... Bəli, bizim də sayımız azalmaqdadır və heç kim bunun fərqində deyil. Hamı deyir ki, əvəzolunmaz şəxslər yoxdur, hamı deyir ki, "müqəddəs yer" boş qalmır...

Amma mən gələnləri, yeniləri görmürəm... Bəzən düşünürəm ki, bəlkə biz də özümüzə elə vurulmuşuq ki, ardımızca gələnləri görmürük?..

Hamı kimi biz də nöqsanlardan xali deyilik. Amma elə bir tünlük də hiss edib-duymuruq... Ona görə də elə hey özümə pıçıldayıram: "üç kərgədan, bəli, cəmi üç kərgədan...".

Azalırıq. Artmırıq. Bunu gərək etiraf edək. Ölkədə nə qədər əsl müxalifətçi qalıb? Ölkədə nə qədər əsl jurnalist var? Saymayın. Onlar az qalıb, lap az. Elə bir gün gələcək ki, onlar da olmayacaq...

Amma insanlar bunun fərqində deyillər... Heç olmasa, kərgədanlar haqqında deyirlər ki, ay camaat, kərgədanları qırıb qurtarmışıq, onlar cəmi üç ədəd qalıb... Amma bizim haqqımızda deyən yoxdur ki, ay aman, onları təqib etdik, ölkədən qovduq, ürək xəstəliyinə saldıq...

Yox, deyən yoxdur. Hətta deyirlər ki, əşi, heç olmasalar daha yaxşıdır. Olub neyləyiblər ki? Əllərindən bir iş gəlmir, sadəcə, könül bulandırırlar...

Olsun. Amma bizim də sözümüz var. Lap bir mahnıda deyildiyi kimi: bizdən daha olmayacaq!.. Bəli, ey insanlar, bilin, bizdən daha olmayacaq...

Daha heç kim öz karyerası ilə, ailəsi-uşaqları ilə, öz canı-sağlamlığı ilə risk etməyəcək. Onlar artıq çox az qalıblar - lap üç kərgədan kimi...



# İki 26 noyabr

Zamin HACI
zaminhaci@gmail.com

**Dünən Nardaranda polislə radikal islamçılar arasında ciddi toqquşma olub, qan tökülüb. 6 nəfərin öldüyü, çoxlu yaralı, həbs edilənlər haqda danışılır. Kənd camaatı bir söz, polis və prokurorluq başqa söz deyir. Neytral, obyektiv araşdırmanı ancaq azad KİV-lər, azad QHT-lər apara bilərdi. Buna isə imkan qalmayıb. Yapistlər bu cəmiyyət institutlarını məhv ediblər. Vətəndaş cəmiyyəti institutları məhv ediləndə isə cürbəcür radikallar meydan sulamağa başlayır. Hər tərəfdən. İki mürtəce sistem toqquşursa, burda müşahidə edənlərə də bir xeyir yoxdur. Çünki müşahidə eləmək üçün məkan və zaman dardır. Zəhləm gedən, ancaq acı həqiqət olan şablonla desək, terrordan heç kim sığortalanmayıb.**

Sizcə, dünənki toqquşmanın 26 noyabra düşməsi sırf təsadüf idimi? Əlbəttə. Ancaq mən bunda da hansısa qanunauyğunluq görürəm, çünki 26 noyabr Azərbaycan tarixinin qara günlərindən biridir. Məhz 2005-ci ilin 26 noyabrında yapistlər "Qələbə" meydanına toplaşan siyasi müxalifəti vəhşicəsinə əzib keçmişdilər. Uşaq, qadın, qoca demədən hər kəsi ayaqlamışdılar. Həmin gün bizim siyasi sistem üçün həm də bir dönüş nöqtəsi idi. Yapistlər məhz 2005-ci ilin 26 noyabrında administrativ maşını tam döndərib təmiz avtoritarizm magistralına çıxdılar. Mesaj verdilər ki, daha demokrasi-filan oyunları bitmişdir, tərpənən vurulacaq, əziləcək. 10 ildir də marşruta əməl edirlər, heç xətdən çıxmadılar.

İndiki radikalların kökləri məhz elə günlərə gedib çıxır. O cür pis günlərdə əkilən toxumlar cücərir, biri Nardarandan çıxırsa, başqası Suriyaya uzanır. Üstünə də gəl təhsilsizliyi, savadsızlığı, cəhaləti, fiziki xəstəlikləri, işsizliyi və sairəni. Bu cür rütubətli rejimdə hamam böcəkləri, tarakanlar, qurdlar, bakteriyalar təbii ki, kef edəcəklər, günahsız insanlar da ara yerdə öləcək.

Misal üçün, maraqlansan görəcəksən Nardaranda bir dənə də normal məktəb yoxdur. *(Guya hansı kəndimizdə var? - bu sualı da gözləyirəm, ancaq bunun izahı bir az uzundur. Niyə nardaranlılar başqa ərazilərdən fərqlənir, bunun ciddi sosial, psixoloji, dini, hətta genetik kökləri var)*. Bu kəndi parlamentdə bəlkə 20 ildir deputatxananın "lal-kar" üzvlərindən biri, hətta düymə basmağa da hərdən gedən Eldar Quliyev adlı tip təmsil edir. Necə deyərlər, ağsaqqalın kimdir, qabaqda gedən... Belə öncülü olan ərazidə qan axmasın neyləsin? Bu şəxs haçan qabağa durub Nardaranın problemi ilə maraqlandı? Niyə orda vaxtaşırı toqquşma olur, insanlar ölür, uşaqlar yetim qalır, ancaq sən öz dəyərsiz deputat dərinə cızıq düşməsindən qorxub ərazidə görünmürsən? Hələ utanmır, özü susmağına baxmayaraq qarağacı danışdırmaq istəyir, bu mövzuda şeir qayırır:

**"Yağı düşmən sən görmüsən
Namərd sözü eşitmisən
Qətlləri sən görmüsən
Nə susmusan, qarağacım".**

Məzə üçün yazmıram, bu, Nardaranın deputatı Eldar əkənin "Eldar Allahyaroğlu" adıyla yazdığı cızmaqaralardan biridir. Hələ deputatxana həmkarı Novruzəli Aslanla birgə poeziya buketi, nəğmə çələngi də hörürlər - bu şeir yazır, Novruzəli müəllim isə musiqisini düzəldir. Sən Nardarandakı qətllərdən danışmayandan sonra, ağac niyə danışsın? Bu nə mövqedir?

Yeri gəlmişkən, srağagün Baş Prokurorluq, nəhayət, dilləndi, MTN işi ilə bağlı xeyli açıqlama verdi. 19 nəfər yüksək vəzifəli "çekist"i damlayıblar. Sadalanan cinayətlərin preyskurantı isə heyrətamizdir. Bunlar milli təhlükəsizlikdən başqa hər işlə məşğul olurmuş: qanunsuz həbslər, reket, torpaq alveri, mülkiyyətə və sağlamlığa qəsd...

Ancaq bir detal xüsusilə maraqlıdır. Düzdür, bunu deyəsən prokurorluq yox, media yayıb. Sən demə, MTN generalları hansısa biznesmeni, məmuru soymaq istəyəndə MTN izolyatorunda saxlanan köhnə poqonlu bandit, "qara polkovnik" Hacı Məmmədovdan yararlanırmış. Mexanizm analoqu olmayandır, eyni zamanda yekə-yekə danışılan dövlətçiliyin nə vəziyyətdə olduğunu göstərir. Uzatmayım: bunlar türmədə Hacı Məmmədova telefon verirmiş, Məmmədov həmin telefonla qurbana zəng edirmiş. Sonra isə MTN generalları qurbanın boğazına çökürmüş: "Sənin Hacı Məmmədovla danışdığın ortaya çıxıb, sən ondan nə zakaz almısan?" Və sairə. Adam qorxusundan hər şeyə razılaşırmış.

Ən tragikomiki isə budur: "çekistlər" Hacı Məmmədovdan baş bankir Elman Rüstəmova qarşı da yararlanmaq istəyəndə Məmmədov buna razı olmayıb. Hacı Məmmədovda dövlətçilik təfəkkürü bunlardan çox imiş. Fikirləşib heç olmasa manat sabit qalsın.

# Ədliyyə Nazirliyi qəzetləri iki ay qapaya bilər

**Ədliyyə Nazirliyinin Kollegiyası "Mətbu nəşrlərin təsis edilməsi barədə müraciətlərin qəbulu və uçotunun aparılması Qaydaları"nı təsdiq edib. Qaydalara əsasən, il ərzində iki dəfə məhkəmə xəbərdarlığı alan mətbu nəşrin fəaliyyətinin dayandırılması mümkün olacaq.**

**Ələsgər Məmmədli:** "Bu, medianın azadlığını məhdudlaşdırmaq üçün nəzərdə tutulmuş bir formuldur"
**Aydın Quliyev:** "Yeni qaydaların ölkədəki peşəkar mediaya yalnız faydası dəyəcək"

Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsi tərəfindən kütləvi informasiya vasitəsinin xarici ölkənin dövlət orqanı, fiziki və ya hüquqi şəxsi tərəfindən qanunazidd şəkildə maliyyələşdirilməsini aşkar etmiş qurumların məlumatları daxil olduqda, kütləvi informasiya vasitəsi məhkəmənin qərarı ilə qərəzli yazılara görə il ərzində iki dəfə məsuliyyətə cəlb edildikdə mətbu nəşrin istehsalına və yayımına xitam verilməsi barədə məhkəmə qarşısında iddia qaldırılır.

Ekspertlər tərəfindən məhz bu iki nüans media hüququna, mətbuat və ifadə azadlığına müdaxilə kimi qiymətləndirilir. Belə ki, Azərbaycanda məhkəmələrin sifarişli qərar qəbul etməsi ilə bağlı halların olması, məhkəmə azadlığının yetərincə olmaması heç kimə sirr deyil. Belə olan halda, bəzi müxalif fikirli, müstəqil mətbuat orqanlarına yuxarıda qeyd edilən şərtlərdə ildə iki xəbərdarlıq edilməsi ilə onların fəaliyyətinin dayandırılması mümkündür.

**Media hüquq eksperti Ələsgər Məmmədli bildirdi ki, kütləvi informasiya vasitələrinin azadlığına məhdudiyyət qoyulması, sadəcə, konvensiyanın 10-cu maddəsində göstərilən əsaslarla, yəni dövlətin təhlükəsizliyi, milli asayişin qorunması, eyni vaxtda insan hüquq azadlığının qorunması üçün mümkündür:** "Bu məhdudiyyət isə həmin KİV-i bütünlükdə aradan qaldırmadan, onu müəyyən mənada çərçivəyə




salan məhdudiyyət anlayışıdır. Burada qeyd edilir ki, mətbu nəşrin baş redaktorunun ali təhsilli olmadıqda və ya əcnəbi şəxs olduqda, eləcə də il ərzində iki dəfə xəbərdarlıq aldıqda mətbuat orqanının fəaliyyətinin dayandırılması mümkündür. Bu yanaşma birmənalı olaraq ifadə azadlığına, mətbuat azadlığına zidd anlayışdır və məhdudlaşdırıcı normadır. Mən düşünürəm ki, bu, medianın azadlığını məhdudlaşdırmaq üçün nəzərdə tutulmuş bir formuldur".

**"Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev isə "Yeni Müsavat"a bildirdi ki, ümumiyyətlə, media sahəsində qayda-qanun yaradılmasına və bəzi fəaliyyətlərin inzibati qaydada tənzimlənməsinə ehtiyac var idi:** "Mənim fikrimcə, bu yeni qaydaların Azərbaycandakı ciddi, sanballı, ictimai rəyi formalaşdıran, dövlətin maraqlarına məsuliyyətlə yanaşan, ciddi qəzetlər və saytlar üçün heç bir təhlükəsi yoxdur. Bu qəzetlər və saytlar üçün nəzərdə tutulub ki, bilərəkdən yalan informasiya yayırlar. Fikrimcə, tətbiq olunmuş yeni qaydanın ölkədəki ciddi peşəkar mediaya yalnız faydası dəyəcək və bunun gələcəyi haqqında narahat olmağa dəyməz. Bu barədə neqativ proqnozlar verənlər də var. Ancaq bu onların fikridir. Mən düşünürəm ki, peşə borcuna, jurnalist etikasına məsuliyyətlə yanaşan media üçün heç bir təsiri olmayacaq. Mən bunu sizə təcrübəli bir mətbuat nümayəndəsi olaraq deyirəm".

**Hazırda fəaliyyəti dayandırılan , "Ayna"- "Zerkalo" qəzetlərinin baş redaktoru Elçin Şıxlı yeni qaydalarda hüquqi izahı olmayan bəzi nüansların yer aldığını bildirdi:** "Birincisi, mən ölkədə xaricdən maliyyələşən bir qəzet tanımıram. Qanuna görə, mətbu nəşrin yaradılmasında xarici investorun payı 30 faizdən artıq ola bilməz. Bu, medianın tənzimlənməsi üçün yetərli deyil. Maliyyənin xaricdən gəlməsi yox, ümumiyyətlə, haradan gəlməsi məsələsini aşkara çıxarmaq daha önəmlidir. Bu, medianın tənzimlənməsi üçün daha uğurlu olardı. Mətbuat orqanına iki dəfə məhkəmə tərəfindən xəbərdarlıq edilməsinin onun fəaliyyətinin dayandırılmasına əsas verməsi də qanunda nəzərdə tutulan müddəadır. Sadəcə, burada redaktorun ali təhsili olub-olmamasının heç bir aidiyyəti yoxdur. Əgər yanlış informasiya verilibsə, iki dəfə xəbərdarlıq alıbsa, biz bəyənməsək də qanun bunun fəaliyyətini dayandırmağa imkan verir".

❑ **Nərgiz LİFTİYEVA**

# Daha bir neçə səfir geri çağırılacaq

## "Yeni Müsavat" diplomat qalmaqalının bu işlə əlaqəsi olub-olmadığını araşdırdı

**Xəbər verdiyimiz kimi, prezident İlham Əliyev Həsən Zeynalovun İstanbul şəhərində baş konsulu və eyni zamanda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında sərəncam imzalayıb.**

Dövlət başçısının digər sərəncamı ilə Murad Nəcəfbəyli Azərbaycanın BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılıb.

Prezident İlham Əliyev, həmçinin Məmməd Əhmədzadənin Argentina Respublikasında və eyni zamanda Paraqvay Respublikasında, Boliviya Çoxmillətli Dövlətində, Çili Respublikasında, Uruqvay Şərq Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında sərəncam imzalayıb. Dövlət başçısının digər sərəncamı ilə Elxan Qəhrəmanov Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərində fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb.




Digər sərəncamla Tofiq Zülfüqarov Azərbaycanın Estoniya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb. Prezident Vəhdət Sultan-zadənin Türkmənistan və eyni zamanda Əfqanıstan İslam Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında da sərəncam imzalayıb. Həmçinin Zakir Həşimov da Qazaxıstan Respublikasında fövqəladə və səlahiyyətli səfir vəzifəsindən geri çağırılıb.

Prezidentin eyni gündə birdən-birə 5 səfiri və 2 konsulu geri çağırmasının səbəbləri sırasında aylarında baş vermiş diplomat qalmaqalının olduğu bəzi ekspertlər tərəfindən ehtimal edilir. Bu fikirdə olanlar keçmiş səfir Arif Məmmədovun hakimiyyətlə ciddi problemləri olan diplomatların sayının çox olduğu haqda aylar öncə verdiyi açıqlamanı xatırladırlar.

Məsələ ilə bağlı "Yeni Müsavat"a açıqlamasında keçmiş səfir Arif Məmmədov bildirdi ki, səfirlərin və konsulların geri çağırılmasının sözügedən hadisə ilə heç bir əlaqəsi yoxdur.

**Haqqın.az saytının baş redaktoru Eynulla Fətullayev isə "Yeni Müsavat"a bildirdi ki, beş səfirin və iki konsulun geri çağırılması qətiyyən aylar öncə baş vermiş diplomat qalmaqalı ilə bağlı deyil:** "Məndə olan dəqiq məlumata görə, bu, Xarici İşlər Nazirliyində keçirilən adi bir rotasiyadır. Ancaq etibarlı mənbələrin məlumatına görə, iqtidar həmin diplomatların bəzilərinin fəaliyyətindən narazı idi".

Xarici İşlər Nazirliyindən də səfirlərin və konsulların geri çağırılması rotasiya qaydasında həyata keçirilən addımdır. Prezident qanunun tələbinə uyğun olaraq öz hüququndan istifadə edərək həmin şəxsləri geri çağırmaq barədə sərəncam verib. Burada başqa heç bir məna, səbəb axtarılması üçün əsas yoxdur.

"Yeni Müsavat"ın hakimiyyətə yaxın mənbədən əldə etdiyi məlumatda isə geri çağırılan səfirlərin və diplomatların ikisi istisna olmaqla, qalanlarının yaxın vaxtlarda digər ölkələrdə Azərbaycanın səfiri vəzifəsinə, XİN-də vəzifəyə təyin ediləcəyi gözlənilir. Mənbəmiz geri çağırılan səfirlərin və diplomatların yerinə dərhal təyinat olmadığına diqqəti cəlb etdi və bildirdi ki, yaxın günlərdə daha bir neçə ölkədəki səfirlərimiz geri çağırılacaq.

❑ **Etibar SEYİDAĞA**

# Türkiyənin baş diplomatının Bakı səfərinin pərdəarxası

## Mövlud Çavuşoğlu Azərbaycanda yüksək səviyyədə görüşlər keçirəcək; **politoloq:** “Ankara Rusiya-Türkiyə münasibətlərinin gərginləşməsi fonunda Bakıdan qətiyyət gözləyir”; Ərdoğandan Putinə sərt cavab gəldi; ruslar yeni düşmən tapdılar - bozqurdlar...

**İki günlük fasilədən sonra rəsmi Bakı Rusiya qırıcısının vurulmasından sonra yaşanan Türkiyə-Rusiya gərginliyinə reaksiya verib. “Azərbaycan təəssüf edir ki, Türkiyə-Rusiya əlaqələri belə gərginləşib”, - deyə Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov twitter-dəki səhifəsində yazıb. Administrasiya rəsmisi tərəflərin heç birini incitməyəcək şəkildə mövqeyi ilə diqqət çəkib.**

**Sitat:** “Türkiyə bizim ən yaxın müttəfiqimizdir, eləcə də Rusiya bizə çox yaxın dost ölkədir. Hər iki ölkə ilə Azərbaycanı tarixi əlaqələr bağlayır. Hər iki ölkə ilə əlaqələrimiz ən yüksək səviyyədədir. Azərbaycan çox istəyir ki, dostları arasında heç bir qarşıdurma olmasın. Azərbaycan gərginliyin azalması işində öz töhfəsini verməyə hazırdır”, - deyə PA rəsmisi vurğulayıb.

Türkiyənin soyuqqanlı davranışlarına və ölçülü-biçili mövqe sərgiləməsinin qarşılığında isə şimal qonşumuzdan hədələr və təhdidlər davam edir. “Moskva bir daha təsdiq edir ki, Suriya üzərində Rusiya təyyarəsini vuran Türkiyə tərəfinin addımları ikitərəfli əlaqələr üçün ciddi nəticələr verəcək və reaksiyasız qalmayacaq”- Rusiya XİN-in bəyanatında deyilir. “Türkiyə bilərəkdən Rusiya ilə münasibətləri dalana sürüyür”. Bunu isə Rusiya prezidenti Vladimir Putin bildirib. “”Su-24”ün vurulması ilə bağlı indiyədək nə üzrxahlıq edilib, nə də dəyən ziyanın ödənilməsinə dair təklif irəli sürülüb” - Putin deyib.

**Türkiyə dövləti isə ilk gündən bəyan etdiyi kimi, sərhədlərinin toxunulmazlığı üçün sərt qərar verdiyini təkrar bəyan edir. Məsələyə keçmiş ordu rəhbərliyindən də reaksiya gəlib.** “Dövlətlər öz sərhədləri daxilində qarşıdurma qaydalarını elan etmək və həyata keçirmək ixtiyarına sahibdirlər”- Türkiyənin keçmiş Baş Qərargah rəisi İlkər Başbuğ söyləyib. Əlavə edib ki, Rusiya və Türkiyə arasında savaş olmayacaq, amma bu hadisə müəyyən şeylərə ciddi təsir göstərəcək.

Rusiya qırıcılarının Suriyaya humanitar yardım aparan Türkiyə TIR-larını vurması barədə yayılan xəbərlər isə doğrulmayıb. Bu haqda “Anadolu Agentliyi”nə İnsan Haqq və Azadlıqları Humanitar Yardım Təşkilatının (İHH) baş katibi Yavuz Dədə deyib (axar.az). O, hücumun Suriyada ticarət məqsədi ilə fəaliyyət göstərən TIR-lara edildiyini bildirib.

**Politoloq Elxan Şahinoğlu bildirdi ki, Rusiyanın ekspert dairələri anti-Türkiyə və antitürk təbliğatlarını gücləndiriblər:** “Putin deyir ki, bizi arxadan vurdular, cavab verəcəyik. Ərdoğan isə bildirir ki, sərhədimizi pozanlar vurulacaq. Bu liderlərdən hər hansı biri ”səhv etdik” deyə bilməz, bu cəmiyyətləri qarşısında zəifliyin əlaməti olar. Ancaq hər ikisi onu da anlayır ki, bu hadisədən çıxış edərək münasibətləri gərginləşdirmək, iqtisadi və ticarət əlaqələrinə son qoymaq da olmaz. Hər ikisinin bu əlaqələrə ehtiyacı var. Ona görə bir neçə gündən sonra hər iki prezident daha soyuqqanlı addımlara üstünlük vermək məcburiyyətində qalacaqlar. Doğrudur, indi Rusiyada isti başlar “PKK-ya silah verək”, “Türkiyəni içəridən dağıdaq”, “ermənilərdən Türkiyəyə qarşı istifadə edək” və sairə kimi başdanxarab təkliflər verirlər. Putin bu yolu seçsə, nəticələri heç bir dövlət, o cümlədən Rusiyanın özü üçün yaxşı olmayacaq. Moskva anlamalıdır ki, Türkiyə sərhədini pozmaq və türkmənlərə hava zərbəsi endirmək olmaz”.

****

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun bu arada Bakıya qəfil səfər etməsi ətrafında ciddi müzakirələr gedir. Noyabrın 26-sı gecəsi Bakıya gələn türkəyli nazir cümə günü rəsmi görüşlər keçirəcək. Çavuşğlu üç gün öncə yenidən Türkiyə hökumətində XİN başçısı postunu tutub və Şimali Kipr Türk Cümhuriyyətindən birbaşa Azərbaycan paytaxtına səfər planlaşdırıb. Lakin Türkiyənin baş diplomatının Bakı səfərini yalnız protokol qaydaları ilə izah etmək düzgün olmazdı. Türkiyə-Rusiya qarşıdurmasının yaşandığı bu günlərdə Azərbaycanın necə çətin situasiya ilə üzləşməsi faktı ortada varkən Çavuşoğlunun səfərində rus qırıcısı məsələsinin əsas müzakirə mövzusu olacağı şübhəsizdir. Eyni zamanda Bakının mövqeyinin hər iki qonşu ölkə üçün əhəmiyyətli olması fonunda türk nazirin Bakı viziti heç də sadə məsələ deyil. Diplomatik mənbələrdən əldə etdiyimiz məlumata görə, Türkiyə XİN başçısının Azərbaycan prezidenti, parlament sədri, baş nazir, XİN rəhbəri ilə görüşü planlaşdırılıb və yüksək səviyyəli Azərbaycan rəsmiləri ilə danışıqlarda şübhəsiz ki, bir nömrəli məsələ Rusiya-Ankara münasibətləri olacaq. Eyni zamanda Türkiyə diplomatı Azərbaycanı imkan dairəsində yanında görmək arzusunu dilə gətirəcək. Belə məlumatlar da dolaşır ki, Azərbaycan Ankara ilə Moskva arasında münasibətlərin məcraya qayıtmasından ötrü vasitəçiliyini təklif edə bilər. Hələlik Azərbaycan XİN-i M.Çavuşoğlunun Bakı səfərinə münasibət bildirmək istəmir.

**Politoloq E.Şahinoğlu isə Türkiyənin xarici işlər nazirinin Bakı səfərini sıradan bir hadisə saymır:** “Rusiya-Türkiyə münasibətlərinin gərginləşməsi fonunda Ankara rəsmi Bakıdan qətiyyət gözləyir. Qətiyyət o demək deyil ki, Azərbaycan XİN təyyarənin vurulmasında Türkiyənin mövqeyini müdafiə edən bəyanat yaysın. Qətiyyət odur ki, rəsmi Bakı Kremldən çəkinməsin, Azərbaycan-Türkiyə hərbi əməkdaşlığına, birgə hərbi təlimlərə ara verməsin. Əks halda, bu, rəsmi Bakının həm Ankaraya, həm də elə Moskvaya yanlış mesajı olar. Aydındır ki, təyyarənin vurulması fonunda Ermənistan hakimiyyəti cəbhə bölgəsində təxribat yaratmaqla Rusiya diplomatiyasının və hərbi maşının Azərbaycana qarşı istifadəyə həvəsləndirəcək. Türkiyənin xarici işlər nazirinin Bakıya səfəri İrəvanla Moskvaya mesajdır ki, odla oynamasınlar”.

Bu arada Moskva Ankaraya qarşı yenə də “soyqırım” iddiasını dövriyyəyə buraxıb. Rusiya Dövlət Dumasına qondarma “erməni soyqırımı”nı inkar edənlərin cəzalandırılması haqqında qanun layihəsi təqdim edilib. Ədalətli Rusiya Partiyasının lideri Sergey Mironov özünün twitter səhifəsində bu haqda yazıb. Şübhə yoxdur ki, bu, iki paytaxt arasında münasibətləri daha da gərginləşdirəcək. Ən azı Fransa nümunəsində bunu görmüşük.

Dünya birliyindən Türkiyəyə dəstək isə artır. Prezident Barak Obama deyib ki, Rusiyanın döyüş təyyarəsinin Suriya-Türkiyə sərhədində vurulması Rusiyanın Suriyada hərbi əməliyyatları ilə bağlı davam edən problemlərə dəlalət edir, lakin Türkiyə öz ərazisini və hava hövzəsini qorumaq hüququna malikdir.

****

Rusiyanın “Rossiya-24” telekanalı isə rus qırıcısının vurulmasının arxasında ”bozqurdlar”ın dayandığını iddia edərək “gül” vurub. Hətta arxivdəki millətçilərin keçmiş prezident Əbülfəz Elçibəyin abidəsi qarşısında toplaşması kadrlarını yayan kanal iddia edib ki, bozqurdlar “terrorçu təşkilat”ın üzvləridir. Rusiya televiziyasının bu iddiasına elə bozqurdun cavabını aldıq.

**Qarabağ döyüşlərində “Bozqurd” batalyonunun komandiri olmuş Nurəddin Xoca “Yeni Müsavat”a səslənən iddiaları təkzib etdi:** “Bozburdlar türk millətçiləridir və hər zaman harda olmasından asılı olmayaraq türk millətinin mənafeyi uğrunda savaşmağa hazırdır. Məgər Vətəni və milli mənafeyi uğrunda savaşan bir təşkilat terrorçu olur? Rus təyyarəsini vuran türk qırıcısı olub və Türkiyə sərhədlərini pozduğu üçün də vurub, əcəb də edib. Ruslar 1983-cü ildə sadə



bir sərnişin təyyarəsi olan Cənubi Koreya ”Boinq”ini vuranda nə deyirdilərsə, biz də o sözləri deyirik. “Boinq”də 300-ə yaxın sərnişin həlak olmuşdu. Rus bombardmançıları türkmənlərin və Türkiyənin torpaqlarında nə qələt edirdi ki, onları da bozqurdlar məhv edirdi. Bozqurdlar öz vətənlərini, millətini dəvətsiz gələn rus terorçulardan qoruyurdular və onları məhv edən rus bombardmançılarını məhv ediblər”.

Rusiya müdafiə naziri Sergey Şoyqu Latakiyadakı Xmeynim bazasına S-400 zenit raket komplekslərini yerləşdirəcəklərini bildirib və hədələyici mövqedən çıxış edib. ABŞ-ın Mərkəzi Komandanlığının hərbi hava əməliyyatlarına cavabdeh olan general-leytenant Çarlz Braun isə deyib ki, Rusiyanın bu addımı bölgədəki situasiyanı daha da çətinləşdirir. Braun ABŞ-ın Rusiyanın bu addımına cavab verəcəyi barədə xəbərdarlıq da edib.

Türkiyə ilə sanksiya dili ilə danışan Moskva məsələyə idmanı da qatıb. Rusiya Futbol İttifaqı (RFİ) ölkə klublarına qışda təlim-məşq toplanışı üçün Antalyaya getməməyi tövsiyə edib. (qol.az) Rusiyadakı türklərlə basketbol oyununda isə antitürk şüarlar səsləndirilib.

“Rusiya və Türkiyə prezidentlərinin noyabrın 30-da Parisdə görüşəcəyi barədə xəbər isə təkzib olunub. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov ”Parisdə hər hansı görüş danışılmayıb və planlaşdırılmır”,- deyə bildirib.

****

Azərbaycanda Türkiyənin addımını təqdir edənlərə yanaşı, bu situasiyada ehtiyatlı davranmağı vacib sayanlar da az deyil. “Türkiyənin addımı beynəlxalq normalara uyğun olub, bu addım müzakirə obyekti ola bilməz”. Bu sözləri Müsavatın sabiq başqanı İsa Qəmbər Türkiyənin Rusiya hərbi təyyarəsinin vurulması ilə bağlı qalmaqalı şərh edərkən bildirib. İsa Qəmbər Türkiyənin bu addımı ətrafında müzakirə belə aparmağın yersiz olduğunu söyləyib. O, Rusiya hərbi təyyarələrinin Türkiyə hava məkanını pozmasının ilk hadisə olmadığını, bu haqda Rusiya tərəfə dəfələrlə xəbərdarlıq edildiyini xatırladıb. ("Turan") İ.Qəmbərə görə, bu addım həm də bölgədə gərginliyin hansı həddə olmasının göstəricisidir. O qeyd edib ki, bu gərginliyi nəzərə alaraq istənilən dövlət ölçülü-biçili addım atmalıdır. İ.Qəmbər bu faktı həm də Ukraynadakı hərəkətlərilə beynəlxalq münasibətlər sisteminə zərbə vuran Rusiya xəbərdarlıq kimi dəyərləndirib. Bu məsələdə Azərbaycanın mövqeyinə gəlincə, İ.Qəmbərə görə, Azərbaycan birmənalı olaraq türkmənlərin və qardaş Türkiyənin yanında olmalıdır. O qeyd edib ki, həm də Azərbaycan kimi problemləri olan dövlətlərə təhlükəsizlik sistemi baxımından kimin yanında olması seçimini etmək xəbərdarlığıdır. İ.Qəmbər bildirib ki, bu halda Azərbaycan Avroatlantik məkana inteqrasiya yönümlü seçimini etməlidir.

Yazı çapa hazırlanarkən Ankarada mühüm toplantı hazırlaqları barədə məlumatlar gəldi. Belə ki, Türkiyə Silahlı Qüvvələri Ali Hərbi Şurasının toplantısı olacaq. Toplantıda baş nazir Əhməd Davudoğlu və müdafiə naziri İsmət Yılmaz iştirak edəcək. Şurada ən əsas məsələ olaraq ölkənin sərhəd təhlükəsizliyi, eləcə də Türkiyənin hava sərhədini pozan Rusiya təyyarəsinin vurulmasından sonra yaranan böhran, Suriyanın türkmənlərə aid bölgəsində Bəşər Əsəd və müttəfiqlərinin hərbi əməliyyatları, PKK, İŞİD kimi terrorçu qruplaşmalara qarşı mübarizə və s. məsələlərin müzakirə ediləcəyi gözlənilirdi. Prezident Rəcəb Tayyib Ərdoğan isə şura üzvləri ilə yalnız şam yeməyində bir araya gəlməliydi.

**Türkiyə prezidenti dünən Putinə cavabında “Eyni pozuntu bu gün baş versə, Türkiyə yenə eyni cür hərəkət edəcək”-deyib. O, Rusiya prezidentinin ittihamlarını da sərt cavablandırıb:** “Deyirlər ki, Türkiyə İŞİD-dən neft alırmış. Yazıqlar olsun! Türkiyənin hazırda nefti də, qazı da aldığı yerlər bəllidir. Bu sahədə ən böyük idxalatı Rusiyadan həyata keçiririk. Sonra İrandan, Azərbaycandan, Şimali İraqdan, eləcə də Əlcəzair və Qatardan alırıq”. **Ərdoğan İŞİD-lə ən ciddi mübarizə aparan dövlətin məhz Türkiyə olduğunu vurğulayıb:** “Bir daha ifadə edirəm: biz Bayırbucak türkmənləri və Əsəd rejiminə qarşı mübarizə aparan mötədil müxalifləri dəstəkləyirik və dəstəkləməyə davam edəcəyik. Çünki bunlar məzlumdur, zərərçəkəndir, oradakı torpaqların sahibləridir. Biz türkmənlərlə qohumuq, soydaşıq”.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 264 (6292) 27 noyabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Türkiyə Hərbi Hava Qüvvələrinin ölkənin hava sərhədlərini pozan rus qırıcısını vurmasındna sonra Ankara-Moskva münasibətlərində gərgin münasibətlər yaşanmaqdadır. Azərbaycana qonşu olan iki nəhəng dövlətin arasında yaşanan soyuq münasibətlərin hətta savaş həddinə gətirib çıxara biləcəyi barədə iddialar səslənir.**




# Vurulan təyyarə Azərbaycanın başında çatlaya bilər

## Vladimir Jirinovski Kremlin Ermənistanla bağlı kartlarını açdı - "Böyük Ermənistan" xülyası yenidən dövriyyəyə buraxılır; azərbaycanlı ekspertlər iki paytaxtın toqquşmasının Qarabağ məsələsinin həllini arxa plana keçirəcəyini düşünür; Rusiya Ermənistana atom silahı daşıya bilər

Ancaq müşahidəçilər hesab edir ki, istənilən halda bu gərginliklər Azərbaycana da öz təsirini göstərəcək. Təkcə ona görə yox ki, Azərbaycan hansı tərəfin mövqeyindən çıxış etməklə bağlı ciddi seçim qarşısında qalıb. Məsələ burasındadır ki, yaşanan gərginliklər Qarabağ məsələsinin onsuz da dalana dirənən həll prosesini daha da müşkülə sala bilər. Son zamanlar Rusiyanın Dağlıq Qarabağ ətrafındakı rayonların geri qaytarılması üçün Ermənistana təsir göstərəcəyi barədə məlumatlar hətta ABŞ diplomatları səviyyəsində də dartışılırdı. Hesab olunurdu ki, Ankara və Moskvanın münasibətlərinin normal olması Qarabağ məsələsinin ədalətli həllində də pozitiv rol oynaya bilər. Lakin hazırkı situasiya tam fərqli perspektivlər vəd edir. Üstəlik, Rusiya paytaxtında ermənilərə dəstəyin artırılması, Türkiyəyə qarşı "erməni kartı"nın işə salınması zərurəti ilə bağlı sərsəm təşəbbüslər səslənir. Hətta "Böyük Ermənistan"ın yaradılmalı olduğundan bəhs olunur ki, bu, təkcə Türkiyəyə deyil, həm də Azərbaycana yönəlik təhlükələrdən xəbər verir. Rusiyanın Rusiya Liberal Demokrat Partiyasının sədri Vladimir Jirinovski "Rossiya 1" telekanalına müsahibəsində analoji iddialar səsləndirib. "Türkiyə ilə bağlı məsələ həll edilməlidir və bunu özgə əlləri ilə etmək lazımdır. Ermənilər türklərə nifrət edirlər, əgər biz onlara qərb torpaqlarını azad etməyə icazə versək, onlar bunu böyük məmnuniyyətlə edərlər. Ermənilər bunu 1918-ci ildə etmişdilər, lakin Moskva o zaman onlara dəstək vermədi, Türkiyə tərəfinə keçdi". **Jirinovski "Kürdistan" və "Böyük Ermənistan" ölkələrinin yaradılmasından danışarkən deyib:** "Biz kürdlərin müstəqilliyini tanıyaq deyə onlar bizdən kömək gözləyirlər. Türkiyədə kürdlərin sayı 20 milyona çatır, paytaxtları isə Diyarbəkirdir. Bununla da Şərqi Anadolu tarixə qovuşacaq, nəticədə isə müstəqil Kürdüstan və Böyük Ermənistan yaranacaq". Nəzərə alsaq ki, Jirinovski bir qayda olaraq Rusiya hakimiyyətinin iradəsini ifadə edən anonslarla çıxış edir, Türkiyəyə ünvanlı təhlükəli planların da Kremldə masa üzərində olduğunu demək mümkündür. Ancaq müşahidələr onu deməyə əsas verir ki, Rusiya "Türkiyə təhlükəsi"nin olması iddiasından çıxış edərək bundan sonra Ermənistana daha çox silah-sursat, hərbi texnika daşıyacaq və bu zaman hər hansı kvotaya məhəl qoymayacaq. Bütün bunlar isə son nəticədə Azərbaycana da ciddi təhlükələr vəd edir. Çünki Rusiya istənilən zaman ən müxtəlif bəhanələrlə Azərbaycan-Ermənistan münaqişəsinə hərbi müdaxilə edə, yaxud işğal olunmuş ərazilərə "sülhməramlı" adı ilə ordusunu yeridə bilər. Ekspertlər də təhlükənin miqyasının böyük olduğu qənaətindədir.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu "Yeni Müsavat"a dedi ki, Türkiyə-Rusiya gərginliyi Dağlıq Qarabağ münaqişəsinin bir az daha konservləşməsinə səbəb olacaq:** "Onsuz da Suriyada davam edən müharibə digər münaqişə mövzularını arxa plana keçirib. Türkiyə-Rusiya münasibətlərinin soyuması və ya gərginləşməsi son zamanlar çox yayılan bir şayiəyə də son qoydu. Guya Rusiya Ermənistan hakimiyyətinə təsir edib Dağlıq Qarabağ ətrafındakı bir neçə rayonun azad olunmasına şərait yaradacaqdı. Rusiya-Türkiyə münasibətlərinin gərginləşməsi fonunda Kreml Türkiyənin bölgədəki hərbi-strateji müttəfiqi olan Azərbaycanın xeyrinə heç bir addım atmayacaq". **E.Şahinoğlu təsdiqləyir ki, Rusiya Ermənistandakı hərbi qüvvələrini də gücləndirəcək və bu addım Azərbaycana xoş olmayan növbəti addım olacaq:** "Ümumiyyətlə, Ermənistan hakimiyyəti Rusiya-Türkiyə gərginliyindən öz xeyrinə istifadə etməyə çalışacaq. Rusiyadakı şovinist dairələrin ermənipərəst açıqlamalarının sayı artacaq. Azərbaycan hakimiyyəti bu arada, Türkiyə ilə hərbi təlimlərin sayını azaltmamalıdır. Əks halda, bu, rəsmi Bakının Moskvaya və Ankaraya yanlış mesajı olar. Rəsmi Bakı Türkiyə ilə hərbi-strateji əlaqələrdən geri addım atmamalıdır".

**Hərbi ekspert Üzeyir Cəfərov da şübhə etmir ki, Türkiyə-Rusiya gərginliyi Qarabağ düyününün tezliklə açılmasına çox böyük manelər yaradacaq:** "Əslində bu, təsadüfi baş vermiş toqquşma olsa da, Rusiyanın son vaxtlar öz hüdudlarından çox kənarda sərgilədiyi davranış gec-tez bu vəziyyətə gətirməliydi, necə ki, gətirib çıxartdı. Axı həmən Rusiya Silahlı Qüvvələrinə məxsus hərbi təyyarələr bir neçə dəfə Türkiyə SQ-nin döyüş növbəsi çəkən təyyarələri tərəfindən xəbərdarlıqlar almışdılar. Hətta səhv etmirəmsə, Rusiyanın Ankaradakı səfiri iki dəfə Türkiyə XİN-ə çağırılmışdı və ona rəsmi xəbərdarlıq edilmişdi. İndi öz səhvlərindən nəticə çıxartmayan rus elə bağırır ki, sanki Türkiyə onun sərhədlərini pozub. Əlbəttə ki, bu vəziyyətin düzəlməsi hələ ən azından yaxın 6 ay - 1 ilə kimi uzana bilər. Deməli, biz Qarabağla bağlı böyük ümidlə gözlədiyimiz xoş xəbərləri hələ bir az da gözləməli olacağıq". **Ü.Cəfərov deyir ki, indiki halda bizim hər hansı addımımız bir az da qəzəbli və sərt münasibətlə qarşılana bilər:** "Artıq Rusiyanın baş təlxəyi Jirinovskinin dünənə kimi bizimlə bağlı Bakıda və Moskvada söylədiyi fikirləri "unudaraq" açıq şəkildə Türkiyəyə Ermənistanın əli ilə cəza verilməsi təklifi də adi söz kimi görünməməlidir. Bu, dolayısı ilə Azərbaycana da bir xəbərdarlıq kimi qəbul edilməlidir. İndi Rusiya həm Türkiyəyə qarşı öz nifrət və qəzəbini reallaşdırmaq üçün bölgəyə əlavə gərginlik, silah-sursat daşıyacaq. Bu da heç də xoş niyyətdən irəli gələn addım olmayacaq. Buna biz də, qardaş Türkiyə dövləti də hazır olmalıyıq. Mən deməm ki, Rusiya bizə açıq şəkildə problem yaratmaq üçün hərəkətə keçsin. Sadəcə, biz öz işimizi elə tutmalıyıq ki, bölgədə ola biləcək hər hansı təxribat və münaqişələrdən özümüzü sığortalaya bilək. Bunun üçün isə biz bütün resurslarımızı nəzərdən keçirməliyik".

**Konfliktoloq Elxan Mehdiyev də hesab edir ki, indiki gərginlik ermənilərin xeyrinə və uzunmüddətli maraqlarına tam uyğundur:** "Belə ki, ermənilər hər zaman Türkiyə-Rusiya yaxınlaşmasından və birgə görüşlərindən qorxuya düşürdü, Rusiyaya şübhə ilə yanaşırdılar. Burada ermənilər nə qazanacaq: ilk növbədə müasir silahlar. Məncə, Rusiya əgər indiki isterikanı davam etdirsə, Ermənistanda atom bombasına qədər müasir və dağıdıcı silahlar yerləşdirəcək. Bu, Türkiyəni Qafqazlardan, Qara dənizdən və əgər Bəşər Əsəd qalarsa - onun uzun zaman qalması ehtimalı çox azdır - Aralıq dənizindən Türkiyəni təhdid etmək planlarının hissəsi olacaq. İkincisi, Ermənistan gedən mənasız danışıqlarda mövqeyini daha da sərtləşdirəcək və Rusiya ilə hərbi inteqrasiyanı daha da gücləndirəcək. Bu da status kvo-nun qeyri-müəyyən qalmasına münbit şərait yaradacaq". **E.Mehdiyev əlavə etdi ki, bundan sonra Rusiya Azərbaycanın Türkiyə ilə hərbi əməkdaşlığına da mane olmağa çalışacaq:** "Rusiyanın başı Suriyada hərbi və sonrakı mərhələdə diplomatik danışıqlara qarışacaq və erməni işğalı davam edəcək. Ermənistan Azərbaycana danışıqlarda hər hansı "güzəşti" - ermənilərin dediyi kimi - Türkiyəni gücləndirmək kimi qələmə verərək Rusiyadan dəstək almağa çalışacaq. Eynilə Rusiya-Azərbaycan münasibətlərinin Rusiya tərəfindən təzyiqə məruz qalma ehtimalı da artacaq. Ümumiləşdirsək, Azərbaycanın hərbi əməliyyatlara əl atması variantı məhdudlaşacaq. Çünki burada Rusiya Türkiyənin Azərbaycanın yanında olduğunu - bu, oldu, ya olmadı - qəbul edəcək, nəticədə Ermənistana edəcəyi kömək ehtimalı daha da artacaq".

**Politoloq Arzu Nağıyev də razıdır ki, Türkiyə-Rusiya gərginliyi ümumən regiona və Azərbaycana, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin həllinə müsbət heç nə vəd etmir:** "Rusiya bundan əvvəl də müsbət istiqamətdə addımlar atmırdı. Qorxulusu odur ki, Suriyadan olan erməniləri işğal olunmuş ərazilərdə yerləşdirməkdə davam edə, bundan başqa, Dağlıq Qarabağ ərazisinə silahlı qüvvələr gətirə və ya orada olan hərbçilərini leqallaşdıra bilərlər. Məlumdur ki, Türkiyə bu münaqişə ilə bağlı Azərbaycanı beynəlxalq arenalarda daima dəstəkləyib və münaqişəyə görə ermənilərlə sərhədini açmayıb". **A.Nağıyev bildirdi ki, bundan başqa, Rusiya qondarma "soyqırım" məsələsini daim qabardaraq münaqişənin indiki halda saxlanmasına və status-kvonun belə də qalmasına çalışacaq:** "Təbii ki, Ermənistan ərazisindəki 102 saylı Rusiya bazasına NATO-Rusiya sərhədini daha da bərkitmək adı altında yeni silah və sursat, eyni zamanda canlı qüvvə yığacaqdır və təbii ki, bu da ermənilərin xeyrinədir. Bununla da balans dəyişə bilər. Belə bir vəziyyətdə Azərbaycan da öz silahlarını artırmağa məcbur olacaq və ruslarla olan müqavilələrin artırılması gözləniləndir. Bundan da Rusiyadan başqa heç kim yararlanmayacaqr".

İndiki situasiya sözsüz ki, Ermənistanın və ümumiyyətlə, erməni lobbisinin ürəyincədir. Elə onların situasiyanı, sadəcə, məmnunluqla seyr etmələri, hər hansı müdaxilə etməmələri də bunun göstəricisidir. Lakin Ermənistanda prosesləri soyuqqanlı təhlil edən analitiklər onu da bilməmiş deyillər ki, Qarabağ bataqlığına düşdükləri bu illərdə Ermənistan məhv olmaq təhlükəsi ilə üzləşib. Rusiya-Türkiyə gərginlikləri isə ermənilərin Türkiyə ilə sərhədlərin açılması ilə bağlı ümidlərini növbəti dəfə dəfn etdi. Üstəlik, Moskva-Ankara savaşı Ermənistanın da ayaq altında qalması ilə bitə bilər...

YENİ MÜSAVAT
N 264 (6292) 27 noyabr 2015

**İqtidar komandasında gəncləşdirmə siyasəti aparılır. Son proseslər onu göstərir ki, ölkə başçısı uzun zamandır ki, vəzifədən yapışan yaşlı məmurları yeniləri, gənclərlə əvəz etmək fikrindədir. İşdən çıxarılan Rabitə və Yüksək Texnologiyalar naziri Əli Abbasovun yerinə 38 yaşlı Ramin Quluzadənin nazir əvəzi kimi təyin edilməsi də buna əyani sübut ola bilər.**

# Hakimiyyətin gənc kadr siyasətinə münasibət fərqlidir

Maraqlıdır, bir çox “qoca məmurları” gənclərlə əvəzləmək mümkündürmü? Bu prosesi həyata keçirmək üçün kifayət qədər gənc kadr potensialı varmı?

İqtidarda kifayət qədər gənc kadrların olduğunu düşünənlər də oldu, ümumiyyətlə, gəncləşmə siyasətinin aparılmadığını deyənlər də...

**Deputat Fəzail Ağamalı iqtidarın kifayət qədər gənc kadr potensialının olduğunu bildirdi:** “Belə bir kadr potensialı nəinki var, mən deyərdim ki, kifayət qədərdir, hətta daha çoxdur. Bu gün yüksək səviyyəli idarəçilik sistemində alt və üst qatlarda min nəfər gənc var. Bunlar Azərbaycan dövlətinin idarə olunmasında həlledici və ciddi mövqeyə malikdirlər. Nazirlər, nazirlərin müavinləri, komitələr, komitə sədrləri, onların müavinləri və digər vəzifələrdir. Bu gün iqtidarın bəlkə də minlərlə bu cür kadr ehtiyatı var və bu, bütövlükdə Azərbaycan xalqının ehtiyat fondudur. İdarəçilik sistemində artıq müstəqillik dövründə formalaşan və inkişaf edən kadrlarımız kifayət qədərdir. Ölkə prezidentinin son təyinatlarında bu amilə üstünlük verməsi, ümumiyyətlə, onun kadr siyasətinin tərkib hissəsidir. Mən dəfələrlə qeyd etmişəm və indi də bu fikirdəyəm ki, biz heç zaman nəsillər arasında fərqləri qabartmalı deyilik. Gənc nəsil heç şübhəsiz ki, hakimiyyətin, dövlətin alt pillələrindən başlayaraq inkişaf edib, formalaşıb lap üst qata çıxmalıdırlar. Bunun üçün bizdə kifayət qədər normal şərait, münbit mühit var. Ölkə prezidentinin də siyasəti məhz buna istiqamətlənib. Eyni zamanda əlbəttə ki, orta və yaşlı nəslin də təcrübəsini kənarda qoymaq olmaz. Onların idarəçilikdən əldə etmiş olduğu yüksək təcrübəni, intellekti də unutmaq olmaz”.



**Fəzail Ağamalı:** “Orta və yaşlı nəslin də təcrübəsini kənarda qoymaq olmaz”



**İqbal Ağazadə:** “Mən o gəncləşmə siyasətini görmürəm”

**F.Ağamalı bütün nəsilləri birləşdirən bir kriteriya olduğunu dedi:** "Bütün nəsillərin hamısını birləşdirən bir vacib kriteriya olmalıdır-müstəqilliyə, dövlətə sədaqət, vətənə məhəbbət. Bu kriteriya bütün nəsillərdə olmalıdır. Çünki dövlətə, xalqa, müstəqilliyə sədaqət hissi olan, vətənpərvər olan şəxs heç zaman vətəndaşı incitməz, vətəninə, dövlətinə xidməti özü üçün şərəf bilər, dövlətdən pul oğurlamaz, xalqdan rüşvət almaz və bu cür halları özünə təhqir bilər. Bu kriteriyalar gəlməkdə olan nəsildə daha qabarıq şəkildə ifadə olunmaqdadır. Çünki onlar müstəqil Azərbaycan dövlətinin içərisində yaşayıb, böyüyən nəsildir və mənə elə gəlir ki, onlar tamam başqa düşüncə, kriteriyalarla formalaşmaqdadır. Bu gün Azərbaycan dövlətinin, ölkə prezidentinin həyata keçirdiyi siyasətin fəlsəfəsində dediyim kriteriyalar durur ki, bu da ümidvaram ki, önə çəkilən gənclərimizin həyatında, fəaliyyətində, dövlətçiliyə verəcəyi töhfələrdə ciddi amil kimi nəzərə alınacaq və onlar etimadı yüksək səviyyədə doğrulda biləcəklər".

**Ümid Partiyasının sədri İqbal Ağazadə isə iqtidarın gəncləşmə siyasəti aparmadığını dedi:** “Hakimiyyətin gənc kadrlar gətirmək kimi bir siyasətini görmürəm. Hansısa bir nazir müavininin təyin edilməsi gəncləşmə siyasəti deyil. Mən o gəncləşmə siyasətini görmürəm. Amma bunu hakimiyyət gəncləşmə siyasəti adlandıra bilər. Çünki hakimiyyətin yuxarıdan aşağı bütün vəzifədə olanlarına baxsanız görərsiniz ki, yaş həddi kifayət qədər yüksək və dünyanın heç bir ölkəsi ilə müqayisə olunmayacaq dərəcədə yuxarı yaş həddidir. O cümlədən parlamentə baxsanız da eyni mənzərəni görərsiniz. Ona görə də mən o fikrə qapılmıram ki, hakimiyyət gəncləşmə siyasəti aparır”.

❑ **Günel MANAFLI**

# Partiya sədri “ictimai əyyaş” ifadəsinə izahat verdi

## Sərdar Cəlaloğlu: “Cəmiyyət ictimai sərxoşluqdan ayılır və dağılmış köhnənin əsasında yenini qurmağa cəhd edir”

**ADP sədri Sərdar Cəlaloğlu azpolitika.info saytında “Azərbaycanda inqilab olacaqmı?” adlı geniş məqaləsində Azərbaycanda inqilabın mümkün olub-olmadığı barədə təhlillər aparıb. O qeyd edib ki, inqilablar zorla siyasətdən kənar saxlanılmış insanların (əyyaşların) kütləvi şəkildə eyni zamanda müəyyən dövr ərzində siyasətdə iştirak etməsidir. İnqilabçı özündə dağıdıcılıq ruhu daşıyan heç bir qanun tanımayan, tabeçilik nümayiş etdirməyən və anarxist meylli adamlardan ibarətdir.**

S.Cəlaloğlu qeyd edib ki, aşağı keyfiyyətli idarəetmədə kütləvi narazılıq başlanğıcda hamıda narazılıq yaradır, narazılığın xüsusi formaya keçməsi ilə narazılığın təşkil olunması meydana çıxır ki, buradan müxalifət meydana çıxır. Müxalifətin antidemokratik cəmiyyətlərdə hakimiyyət dəyişikliyini həyata keçirə bilməməsindən və iqtidarın öz hakimiyyətini qorumaq üçün repressiyalar həyata keçirməsi, hakimiyyətin tədrici dəyişilmələrinin qarşısını alması narazılarda nailiyyətsizlik sindromu meydana çıxarır. Nailiyyətsizlik sindromu dəyişilmələrin baş verməməsinin səbəbini özündə axtarmağa səbəb olur. Nəticədə narazılar iki yerə-ittiham edənlərə və ittiham olunanlara ayrılır. İttiham olunanlar - leqal, ittiham edənlər - gizli müxalifət kimi formalaşır.

**S.Cəlaloğlu təhlil apardıqdan sonra bu nəticəyə gəlib ki, Azərbaycanda narazı kütlənin çox az bir hissəsi leqal müxalifətdədir, narazı kütlənin nəhəng bir hissəsi iqtidardan heç bir gözləntisini ifadə etmədən zahirən onun yanındadır. S.Cəlaloğlu bu durumu ictimai əyyaşlıq adlandırır:** “Bu, ictimai əyyaşlığın əhalinin nəhəng çoxluğuna sirayət etdiyini sübut edir. Son 20 ildə bu hakimiyyətə qarşı bir neçə dövlət çevrilişi cəhdləri heç bir nəticə verməmişdir. Ölkədə həqiqi islahatlar da aparılmır. Bu, Azərbaycanda hakimiyyətə sığınmış öz narazılığını gizlədən və hakimiyyətin əmrlərini sözsüz yerinə yetirən yüz minlərlə inqilabçının olmasından xəbər verir”.



Sərdar Cəlaloğlu

**ADP sədri yazısında vurğulayıb ki, kiçik bir hadisə Azərbaycanda inqilabı başladacaq:** “Artıq növbəti çevrilişin də qarşısı alınıb. Qubada, İsmayıllıda, Mingəçevirdə bir-birinin ardınca baş verən iğtişaşlar yatırılıb. İndi xalqın və şəxsiyyətin hakimiyyətinin yenidən daraldılması ilə hakimiyyəti saxlamağa cəhd edilir. Seçkilər tam şəkildə siyahı əsasında keçirildi, hakimiyyət xalqı yenidən rus əsarətində saxlamaq istiqamətində cəhd edir. Ölkədə inqilabi kütləni daha da narazı salan proseslər-hakimiyyəti müdafiə edənlərin işdən çıxarılması, əmək haqlarının azaldılması, sosial imtiyazların ləğv edilməsi prosesi başlayıb. Bu müəyyən sayda insanı əhatə etdiyi andan kiçik bir hadisə Azərbaycanda inqilabı başladacaq”.

**S.Cəlaloğlunun məqaləsində “ictimai əyyaş” ifadəsinin işlədilməsini bəzi oxucular ictimaiyyətin aşağılanması kimi başa düşüblər və sosial şəbəkədə narazılıq ediblər. ADP sədri isə “Yeni Müsavat”a açıqlamasında izah edib ki, burada ictimaiyyətin aşağılanmasından söhbət gedə bilməz:** “”Əyyaş" sözü sosiologiyada “qaragüruh” adlanır, hansı ki, istənilən inqilab qaragüruhun əl işi kimi meydana çıxır. Qaragüruh emosiyalarla idarə olunan aşağı intellektuallığa malik adamlardan təşkil olunur. Qurani-Kərimdə “əyyaş” sözünün ictimai sərxoşluq vəziyyətinə düşən adamlara işarə etdiyi aydın olur. Sosiologiyada belə vəziyyət “inqilabi ruh” adlanır. İnqilabi ruh cəmiyyətin çoxluğunun ictimai sərxoşluğa keçməsidir, hansı ki, sağlam mühakimə öz yerini ictimai halsunasiyalara buraxır. İnqilabi ruh təhtəlşüur işi olduğundan, bu ruhun əmələ gəlməsini, inkişaf etməsini və təzahürünü zahirən izləmək və aşkarlamaq çətindir.

İnqilabi ruhun yeganə funksiyası dağıtmaqdan ibarətdir, hansı ki, quruculuğa keciddə inqilabi ruh yarandığı kimi də yox olur. Cəmiyyət ictimai sərxoşluqdan ayılır və dağılmış köhnənin əsasında yenini qurmağa cəhd edir. Əgər inqilablar qələbə çaldıqdan sonra inqilabi ruh saxlanılırsa, onda inqilab öz dağıdıcılığını davam etdirir və xalq inqilablardan qazanmaq əvəzinə, itirir. Mən bunu əsaslandırmaq üçün həmin termindən istifadə etmişəm".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 264 (6292) 27 noyabr 2015



# Körpələri niyə küçəyə atırlar- psixoloq və hüquqşünas danışır

**Son vaxtlar yeni doğulan körpələrin küçəyə, zibilliklərə, kanalizasiya quyularına və s. yerlərə atılması halları çoxalıb. Araşdırmalar göstərir ki, bu cür analoji hadisələr paytaxtla yanaşı, ölkənin müxtəlif regionlarında da qeydə alınır.**

Bugünlərdə isə paytaxtın Nərimanov rayonunda kanalizasiya quyularının təmirində işləyən Alış Aşırov adlı şəxsin mətbuata açıqlamasında quyulardan 50-yaxın uşaq cəsədi tapdığını deməsi cəmiyyətdə ciddi narahatlıq doğurdu, körpə qatillərinə ciddi cəza verilməsi, bununla bağlı qanunvericiliyin sərtləşdirilməsi tələbləri səsləndi.

Statistik məlumatlara görə, Azərbaycanda valideyni tərəfindən ildə 30-a yaxın yeni doğulan körpə atılır. Lakin qeyri-rəsmi məlumatlara görə, atılmışların sayı göstərilən saydan kifayət qədər çoxdur. Bəzi iddialara görə, valideynlər qanundakı boşluqlardan istifadə edərək bu cür addımlar atır və bir çox hallarda məsuliyyətdən kənarda qala bilir.

Valideynləri yenicə doğulan körpələrini küçəyə atmağa nə vadar edir?

**Psixoloq Azad İsazadə bu məsələdə bir çox təsirlərin rol oynadığını deyib:** "Xüsusən də işsizlik, sosial problemlər bu halların yaranmasına səbəb olur. Atılan uşaqların əksəriyyəti nikahdankənar doğulan uşaqlardır. Sosial tənqidə dözə bilməyən analar uşaqdan imtina etməyə məcbur olurlar.

Azərbaycanda erkən seksual həyatın profilaktikası ilə bağlı çox az təbliğat aparılır. Nəticədə hamilə qalan qadınlar yaşayacaqları problemləri əvvəlcədən dərk edə bilmirlər. Qəfil belə bir faktla qarşılaşan qadınlar dünyaya gətirdikləri körpənin qayğısına qala bilmir və uşağı atmalı olur. Ətraf da anaya bu cür hərəkət etməsi üçün psixoloji basqın edir. Mən bu cür anaların tərəfdarı deyiləm. Lakin belə anda real çıxış yolu ancaq bu olur".

Qeyd edək ki, bir çox xarici ölkələrdə arzuolunmaz körpələrin küçələrə atılmasının qarşısını almaq üçün xüsusi məntəqələr fəaliyyət göstərir. Övladından imtina edən valideyn uşağı həmin məntəqəyə qoyur və valideynin anonimliyi qorunur. Bu isə uşaqların küçəyə atılmasının qarşısını alır, onların həyati təhlükəsizliyini təmin edə bilir.

Azərbaycanda da bu cür yerlərin yaradılması labüddürmü?

Bəzi ekspertlər bununla bağlı olaraq xüsusi yerlərin yaradılmasına qarşı fikirlər səsləndirir, Azərbaycan cəmiyyətinin hələ buna hazır olmadığını qeyd edirlər. Əvəzində isə arzuolunmaz uşaqların dünyaya gətirilməməsi üçün profilaktik tədbirlərin daha da gücləndirilməsinin gərəkliyini vurğulayırlar.

**Hüquqşünas Müzəffər Baxış bildirdi ki, körpəsini bilərəkdən küçəyə, zibilliyə atan valideynlər qəsdən adamöldürmə cinayəti ilə məsuliyyətə cəlb oluna bilər:** "Azərbaycan Respublikası Konstitusiyasının 34-cü maddəsinə əsasən, valideynlər uşaqlarını tərbiyə etməyə və onların qayğısına qalmağa borcludurlar. Qanuna əsasən, valideynlərin öz övladlarından imtina etməsi proseduru nəzərdə tutulmayıb. Lakin müəyyən valideynlər var ki, onlar bu və ya digər səbəblərdən öz uşaqlarından imtina edirlər.

Konkret uşağın hara və hansı şəraitdə atılmasından asılı olaraq valideynin məsuliyyəti ortaya çıxır və valideyn uşağı öldürmək istəməkdə ittiham oluna bilər. Çünki şüurlu şəkildə anlayır ki, köməksiz şəkildə qalan uşaq hər an ölüm təhlükəsi ilə üz-üzə qala bilər. Tez-tez şahidi oluruq ki, valideynlər uşaqlarını uşaq evlərinin qarşısına qoyur ki, onu götürsünlər. Bu valideynlərin də əməllərinə hüquqi qiymət verilmir. Belə hallarda bir qayda olaraq Ailə Məcəlləsinin tələblərinə uyğun dərhal prokurorluğa müraciət edilir və uşaq himayə, qəyyumluq qurumlarının köməkliyi ilə xüsusi müəssisələrə yerləşdirilir. Lakin valideyni axtarıb tapmaq, onu məsuliyyətə cəlb etmək heç kimin ağlına gəlmir".

**Hüquqşünas qeyd etdi ki, məsələ ilə bağlı qanunda heç bir boşluq yoxdur:** "Sadəcə, qanunların icra edilməsində boşluqlar var. Hansısa məmurların belə məsələlərdə gözləntiləri, maraqları olduğundan bəzən körpələrini atan valideynlərin əməlləri obyektiv araşdırılmır, hüquqi qiymət verilmir. Belə olan halda bu cür xoşagəlməz hallar da getdikcə çoxalır".

**Azərbaycan Uşaqlar Birliyinin nəzdində fəaliyyət göstərən "Müvəqqəti Sığınacaq-R-inteqrasiya Mərkəzinin direktoru Dadaş Əhmədov məsələ ilə bağlı "Yeni Müsavat"a danışıb. O, dövlət tərəfindən hərtərəfli işlənmiş mükəmməl proqram tərtib olunmasının vacibliyini vurğulayıb:** "Bizim sığınacaqda valideynləri tərəfindən imtina edilən müəyyən uşaqlar yerləşdirilir. Lakin sırf zibilliyə və yaxud başqa yerə atılan uşaqlar quruma gətirilməyib. Körpə olduqlarına görə belə uşaqlar adətən tibb müəssisələrinə yerləşdirilirlər.



**Azad İsazadə:** "Atılan uşaqların əksəriyyəti nikahdankənar doğulan uşaqlardır"



**Müzəffər Baxış:** "Körpəsini bilərəkdən küçəyə, zibilliyə atan valideynlər qəsdən adamöldürmə cinayəti ilə məsuliyyətə cəlb oluna bilər"

O ki qaldı səbəblərə, onlar müxtəlifdir. Bura sosial, psixoloji problemləri, ailədaxili zorakılığı və s. məsələləri aid etmək mümkündür. Bir qədər bundan əvvəl polis sığınacağımıza bir xanım gətirdi, bildirdi ki, onun uşaqları var və onları qoymağa yeri yoxdur. Söhbətimizdən məlum oldu ki, 23 yaşlı bu qadın 2 dəfə ailə qurub və 6, 5 və 1,5 yaşlı 3 uşağı var. Hər 2 ərindən boşanıb, indi də nə işi, nə yaşayış yeri, nə də dolanışığı var.

Bu cür məsələləri tənzimləmək hazırda çox çətindir. Bir yandan iqtisadi geriləmələr, bir yandan adət-ənənələrin deqradasiyası, mənasız şou-proqramlar, sosial şəbəkələr, mobil rabitə və s. çoxsaylı amillər işə mənfi təsir göstərir".

❑ Xalidə GƏRAY

# Prezidentin iki mühüm qərarı iqtisadiyyatı böhrandan çıxaracaqmı...

## Vüqar Bayramov: "Dövlət daxili borclanmaya üstünlük verir və bu yolla çalışır ki, xarici borcların həcmi artmasın"




**Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev "Azərbaycan Respublikasının 2015-ci il Dövlət Büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanunu imzalayıb.**

Dəyişikliyə görə, 2015-ci il üzrə daxili dövlət borclanmasının yuxarı həddi (limiti) 3 dəfə artırılaraq 1,5 milyard manatdan 4,5 milyard manata qaldırılıb. Dəyişiklik 2015-ci il iyulun 15-dən tətbiq ediləcək.

Bundan başqa, prezident İlham Əliyev "Azərbaycan Mərkəzi Bankı haqqında" Qanunda da dəyişikliklər edilməsi barədə qanun imzalayıb. Yeni qanunla Mərkəzi Bankın nizamnamə kapitalı 10 milyon manatdan 500 milyon manata çatdırılıb. Sərəncama əsasən, Mərkəzi Bankın funksiyalarına ölkənin icmal (dövlət və qeyri-dövlət) xarici borc statistikasını və beynəlxalq investisiya balansını tərtib etmək, məlumatların ümumiləşdirilməsini və yayılmasını təmin etmək məsələsi də daxil edilib.

Daxili dövlət borclarının limitinin 3 dəfə atırılmasının arxasında hansı məqsədlər dayanır? Bu dəyişiklik manatın məzənnəsinin saxlanılması üçün faydalı olacaqmı?

**"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı alim Vüqar Bayramov bu qərarın xarici borcların həcminin azaldılmasına yönəldiyini bildirdi:** "Daxili dövlət borclanmasının limitinin artırılması dövlət qurumlarının daxili mənbələrdən borclanmasını nəzərdə tutur. Nəzərə alsaq ki, Azərbaycan qanunverciliyinə əsasən dövlət borcu, xarici dövlət borcu və daxili dövlət borcu kimi iki kateqoriyada qruplaşdırılır. O cümlədən maliyyə resurslarının cəlb edilməsi üçün lazım olan mənbələrdən də biri daxili dövlət borcudur. Azərbaycanda daxili və xarici dövlət borcunun maksimum limiti məhz ölkə prezidenti tərəfindən qanunla müəyyənləşdirilir. O limitin artırılıb azaldılması isə qanuna edilən dəyişikliklə mümkündür. Azərbaycanda daxili dövlət borcu "Dövlət borcları haqqında" Qanunla tənzimlənir. Mövcud qanunvericiliyə əsasən daxili dövlət borcu Azərbaycan Respublikası adından, Azərbaycan Respublikasının rezidentləri ilə bağlanmış müqavilələr üzrə borcdur".

**İqtisadçı alimin sözlərinə görə, qanunun məqsədi daxili və xarici borcun maksimum limitinin müəyyənləşdirilməsidir:** "Daxili dövlət borcu daxili rezidentlərlə bağlanır. Bunlar həm vətəndaşlarla , həm dövlət qurumları ilə bağlanan müqavilələrdir. Daxili və xarici dövlət borcunun yuxarı hədləri milli valyuta olan manatla müəyyənləşdirilir. Burada əsas məqsəd cəlb edilə biləcək daxili və xarici borcun maksimum limitinin müəyyənləşdirilməsidir. İndiki halda maksimum məbləğ 4,5 milyard manatdırsa, bu o deməkdir ki, 2016-cı ildə daxili mənbələrdən 4,5 milyard manat borc cəlb edilə bilər. Bu, həm rezidentlərlə bağlanmış müqavilələr əsasında cəlb edilən vəsaitlərdir, həm daxili maliyyə bazarına dövlət qurumları tərəfindən qiymətli kağızların buraxılması yolu ilə daxil olan vəsaitlərdir".

**Qanunun ölkə iqtisadiyyatına verəcəyi faydalardan danışan V.Bayramov qeyd etdi ki, praktik olaraq daxili dövlət borcunun artırılması bir tərəfdən də xarici borc limitinin tənzimlənməsinə imkan verəcək:** "Bu baxımdan demək olar ki, dövlət daxili borclanmaya üstünlük verir və bu yolla maliyyə vəsaitinə olan tələbini ödəməyə çalışır. İndiki məqamda bu qərar ölkə iqtisadiyyatı üçün mənfi nəticələrə gətirib çıxarmayacaq. Əgər daxili borclanma qiymətli kağızlar bazarında qiymətli kağızların emissiyası formasında olacaqsa, bu bazarın aktivləşməsinə gətirib çıxaracaq. Bu baxımdan daxili borclanmanın da növlərinin müəyyənləşdirilməsinə ehtiyac var. Daha yaxşı olar ki, artırılmış limit daxilində qiymətli kağızlar bazarına müdaxilə vasitəsilə hökumət daxili borclanmaya getsin ki, bu da gələcəkdə iqtisadiyyata mənfi təsir etməsin".

**Mərkəzi Bankın nizamnamə kapitalının 50 dəfə artırılaraq 500 milyon manata çatdırılmasına gəlincə, iqtisadçı alim bildirdi ki, aprel ayında Mərkəzi Bank haqqındakı qanuna edilən dəyişiklikdən sonra bu gözlənilən idi:** "Burada əsas məqsəd AMB-nin likvidliyini yüksəltməkdən və bu quruma olan inamı artırmaqdan ibarət idi. Bu qurumun nizamnamə kapitalının artırılması vacib idi. Çünki likvidliyin artırılması Mərkəzi Banka imkan verir ki, kommersiya banklarına daha çox dəstək verə bilsin. Bu həm mərkəzləşmiş kredit resurslarının həcmində özünü göstərəcək, eyni zamanda kommersiya banklarına birbaşa maliyyə dəstəyinin artırılmasına zəmin yaradacaq.

Mərkəzi Bankın nizamnamə kapitalının artırılması həmçinin onun daxili və xarici bazarda daha fəal iştirak etməsinə şərait yaradacaq. Eyni zamanda bu imkan verəcək ki, AMB xüsusən xarici bazarlardan daha çox vəsaitin cəlb edilməsini həyata keçirə bilsin. Bu baxımdan nizamnamə kapitalının artırılması müsbət haldır və Mərkəzi Bank çalışmalıdır ki, nizamnamə kapitalının 50 dəfə artırılmasından istifadə etməklə daha çevik alətlərdən faydalanaraq, həm məzənnə, həm bank, həm də pul-kredit siyasətinə töhfə verə bilsin. Çünki bu artıq Mərkəzi Banka əlavə rıçaqların verilməsi deməkdir və təbii ki, ABM bu rıçaqlardan istifadə etməklə pul-kredit siyasətinə təsir etməyə çalışmalıdır.

Əgər Mərkəzi Bank xarici valyuta bazarlarından vəsait cəlb edə biləcəksə, bu yolla manatın məzənnəsinə də təsir göstərə bilər. Manatın məzənnnəsi daha çox ABM-in xarici valyuta ehtiyatlarından asılıdır. Mərkəzi Bank xarici valyuta ehtiyatları ilə bazara intervensiya edir. Bu, indiki hal üçün müsbət addımdır, lakin növbəti mərhələdə bu, Mərkəzi Bankın nizamnamə kapitalının artırılmasından necə faydalanmasından asılı olacaq".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 264 (6292) 27 noyabr 2015



# Türkiyə-Rusiya: “soyuq müharibə” qayıdır?

Qərb mediası nə Rusiya, nə də NATO-nun bir-biri ilə vuruşmaq istəmədiyini yazır; “Putin bu təxribatla alyansın yekdilliyini və əsəblərini sınağa çəkib...”

**Türkiyə səmasında Rusiyaya məxsus “Su-24" təyyarəsinin vurulması dünya gündəminin əsas mövzusu olaraq qalır. Rəsmi Moskva, onun nəzarətindəki KİV-lər Ankaraya ittihamlar yağdırmaqda, hətta hədələməkdə davam edir. Halbuki Rusiya da daxil, heç bir normal dövlət, - o ki ola NATO üzvü Türkiyə, - öz hava məkanının mütəmadi pozulmasına seyrçi qalmaz. Üstəlik, Ankara bundan öncə dəfələrlə xəbərdarlıq eləmişdi.**

Belə xəbərdarlıqlara məhəl qoyulmadan Rusiya hərbi təyyarəsinin təzədən, nümayişkaranə şəkildə, həm də türkmənlər yaşayan ərazidən Türkiyə hava məkanına daxil olub-çıxması artıq saymazlıq və qardaş ölkəni təxribata çəkmək idi. Di gəl ki, Moskva məhz Ankaranı təxribatda suçlayır, iddia edir ki, 17 saniyəlik pozuntuya görə gərək Ankara “Su-24"ü vurmayaydı. Yəni faktiki şəkildə pozuntu faktını etiraf edir.

Doğrudan da rus bombardmançısı xoş məram naminə vurulmaya bilərdi. Amma axı, buna kimi Türkiyə bir neçə dəfə belə jesti göstərmişdi. Üstəlik, təyyarə həm İŞİD-ə, həm də Bəşər Əsəd rejiminə qarşı mübarizə aparan və dinc əhalini qoruyan türkmən könüllülərinin olduğu ərazidə yerə salınıb. “Su-24"ün orada, Türkiyə ilə cəmi bir neçə km-lik sərhəddə nə iti azmışdı ki, belə aqibətə də tuş gələydi? Ümumiyyətlə, analoji vəziyyətdə, görəsən, Rusiya Türkiyə qırıcısına aman verərdimi, özünə rəva bilmədiyini başqasına görərdimi?

Sual həm də budur. Amma Rusiya tərəfi, onun KİV-ləri günahı israrla Türkiyə üzərinə atmağa çalışır. Türkiyəni həyasızcasına İŞİD-in havadarı kimi təqdim edir, hətta prezident Rəcəb Tayyib Ərdoğanı və ailəsini terror təşkilatı ilə neft alverində suçlayır.

Sonuncu ittihama ən tutarlı cavabı elə Ərdoğanın özü twitter səhifəsində verib. **“Müsəlmanlar bu gün ağır imtahanlardan keçir. İŞİD, ”Boko-Haram", “əl Qaidə” adlanan bu terror şəbəkələri İslam dini adından qətliamlar həyata keçirir. 1400 illik tarixi olan İslam ənənəsini məhv eləmək istəyən bu xərçəng hüceyrələrindən təmizlənmək lazımdır. Müsəlmanların başlıca vəzifəsi budur".**

İŞİD-i indi publik şəkildə “xərçəng şişi” adlandıran şəxs onunla hansısa iş birliyinə girib onu gücləndirərmi? Bu gün İŞİD-ə görə Türkiyəyə üç milyona yaxın suriyalı qaçqın çökük, onların saxlanması, təminatı üçün qardaş ölkə öz büdcəsindən milyardlar xərcləyir. Ona belə izafi xərclər lazımdımı? Başqa yandan, İŞİD Türkiyədə də qanlı terror aktları törətmirmi? Nəhayət, niyə o da yaddan çıxarılır ki, İŞİD Ərdoğanı “Qərbə satılmış kafir” elan edərək qətlinə fərman verib? O zaman bu, nə absurdluq, bu, nə haqsızlıq?..

***

“Su-24" insidenti təbii ki, Qərb mətbuatının da diqqət mərkəzindədir. Ortaq fikir belədir ki, ”nə Rusiya, nə də NATO bir-biri ilə vuruşmaq istəmir, ancaq belə situasiyalar həmişə proqnoz edilməyən şəkildə inkişaf edə bilir".

**“Kritik dərəcədə vacibdir ki, Moskva, Ankara və NATO-da soyuq başlar üstünlükdə olsun” - yazır “The Guardian”. Redaksiya hadisəni “əsəbləri vuran olay” adlandıraraq ardınca yazıb:** “O, NATO ilə nüvə dövləti arasında birbaşa qarşıdurma kabusunu oyatdı və qəfildən belə bir təhlükə yaratdı ki, mürəkkəb Suriya müharibəsi nəsə daha böyük bir şeyə çevrilə bilər”.

**“Türkiyə və Rusiya İŞİD-ə qarşı vahid koalisiya yaratmağa çalışan Fransa prezidenti Fransua Ollanda lazımdır”. Bunu isə Fransanın nüfuzlu “Le Figaro” nəşri qeyd edib.**

**Öz növbəsində “The New York Times” qəzeti baş məqaləsində qeyd edib:** “Çərşənbə axşamı Suriyadakı vətəndaş müharibəsində fərqli qüvvələri dəstəkləyən iki iri dövlət toqquşdu. Toqquşma dərhal soyuq savaş stili qazandı”. **Məqalə müəllifləri əmindirlər:** “Rusiya, nə də NATO bir-biri ilə vuruşmaq istəmir. Bununla belə, insident eyni hərbi əməliyyatlar teatrında Rusiya və NATO-nun döyüş hərəkətləri ilə bağlı bir sıra riskləri ortaya çıxardı. İnsident həmçinin Suriyaya dair danışıqlarda diplomatik "sıçrayış" şanslarını zəiflətdi. NATO və Rusiya arasında ziddiyyətlər gücləndi və Putini Bəşər Əsədin müdafiəsindən çəkinməyə inandırmaq səyləri boşa çıxdı".

**Təhlildə daha sonra deyilir:** “Son zamanlar Türkiyə və Rusiya arasında ziddiyyətlər həm də rus təyyarələrinin Suriyanın şimalında türkmən bölgəsini bombalamasına görə güclənməkdə idi. Türkiyə hesab edir ki, Suriya türkmənləri onun müdafiəsi altındadır. Türkmənlər Bəşər Əsədi devirmək üçün döyüşürlər. Bu həftə Ankara Rusiya səfirini çağıraraq türkmənlərə zərbələri dayandırmağı tələb eləmişdi”. Qəzet bu xüsusda ABŞ prezidenti Barak Obamanın Türkiyəyə dəstəyini də vurğulayıb.

**“The Wall Street Journal” isə yazır:** “Putin olayı Rusiya-Türkiyə münasibətləri üçün ciddi nəticələri olacaq ”kürəyə zərbə" adlandırıb. Obamanın prezidentliyinin son aylarının “soyuq müharibə” bitəndən üzü bəri ən təhlükəli aylar olacağını deyəndə biz məhz bunu nəzərdə tuturduq".

Bəs Putin NATO üzvü Türkiyəni niyə təxribata çəkir? “The Wall Street Journal” bunu qismən, “Moskvanın İran və Tehranın Dəməşq və Beyrutdakı şiə marionetkaları ilə alyans qurması” ilə izah edir - hansılar ki, regionda sünni Türkiyə ilə nüfuz mübarizəsi aparır". “Pütin ola bilsin həm də NATO-nun yekdilliyini, alyansın Nizamnaməsinin 5-ci bəndinə əməl edilib-edilməyəcəyini sınağa çəkmək istəyib” - ehtimal edib nəşr.

“Bu insident Moskvanın Suriya konfliktinə müdaxilə kontekstində hərbi strateqlərin proqnozlaşdırdığı fəlakət ssenarilərindən biridir” - yazıb Britaniya qəzeti “The Financial Times”. Məqalə müəlliflərinə görə, soyuq müharibə bitəndən sonra ilk dəfə NATO-ya üzv ölkə Rusiya hərbi təyyarəsi ilə hava döyüşünə girib.

***

Lakin Qərb mediasının şərhlərinə rəğmən, o da var ki, Ankara ilə Moskva hələ ki diplomatik əlaqələri saxlayır. Nə Rusiya öz səfirini Türkiyədən geri çağırıb, nə də Türkiyə Moskvadan. Bu da iki ölkə arasında gərginliyin təhlükəli ssenari üzrə inkişaf etməyəcəyinin təzahürü sayıla bilər.

❑ **Siyasət şöbəsi**

# “Üzr məsələsi” qalmaqala çevrilir-İradə Tuncay da...

“Rəşadı və Aqil Abbası düşmən etmək doğrudurmu?” soruşan baş redaktor “Avrasiya İttifaqının tərəfdarıyam” dedi



**Türkiyənin Rusiya təyyarəsini vurması Azərbaycan ictimaiyyətində birmənalı qarşılanmadı. Bu məsələdə qardaş Türkiyənin yanında olanlar, onun sərhədini pozan rus təyyarəsini vurmasını doğru hesab edənlər çoxluq təşkil etsə də, bunu yanlış sayanlar da oldu.**

Belə ki, məsələ ilə bağlı ictimaiyyətin qınaq obyektinə daha çox “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid və deputat Aqil Abbas gəldilər. Rəşad Məcidin baş verən məlum hadisəyə görə Türkiyənin Rusiyadan üzr istəməli olduğunu söyləməsi və Aqil Abbasın da ona dəstək verməsi cəmiyyətdə birmənalı qəbul edilmədi. Fikri səsləndirənləri Rusiyaya işləməkdə suçlayıb, onları hətta “beşinci kolon”un nümayəndələri də adlandırdılar.

**Vəkil Aslan İsmayılov** bildirib ki, ən çətin günümüzdə bizə qardaş, dayaq olacaq dövlət ancaq Türkiyə, başımıza gələn bəlanın isə əsas səbəbkarı Rusiya olub: **“Aqil Abbas kimi deputatdan nə desən gözləyərdim, hörmət etdiyim Rəşad Məciddən isə əsla belə mövqe gözləməzdim”. Deputat Fazil Mustafa məsələyə münasibət bildirərək söyləyib:** “Rusiyadan üzr istəmək məsələsinə gəldikdə isə bizim bunu Türkiyə dövlətinə tövsiyə etməyimiz belə mənəvi cəhətdən yanlışdır. Türkiyə öz dövlət maraqlarını bizdən də yaxşı bilir və atdığı addımın bədəlinə hazır olduğu üçün bu sərt və haqlı qərarı qəbul edib. Çünki son vaxtlar Rusiya Türkiyə ilə həddən artıq aşağılayıcı üslubda davranırdı və bir neçə dəfə sərhədini pozmuşdu. Mən də patriotik hay-küyçülüyün əleyhinəyəm, ancaq burada dövlətin öz təhlükəsizliyini qorumasından söhbət gedirsə, savaş bahasına da olsa, bunu qorumaq lazımdır. Rusiyadan üzr istəməyi doğru sayanlar, məncə, özləri Şahdağa ekspedisiya təşkil edib oradakı zirvələrin birində üzlərini Rusiya istiqamətinə tutaraq doyunca üzr istəyə bilərlər”.

**Məsələ ilə bağlı “Ədalət” qəzetinin baş redaktoru, Aqil Abbasın həyat yoldaşı İradə Tuncayın da fikrini aldıq. İradə Tuncay “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, o, Avrasiya İttifaqının tərəfdarıdır:** “Fikrim belədir ki, Avrasiya İttifaqının tərəfdarıyam. Vəssalam. Bu sözün içərisində hər şey var. Bugünkü siyasi müstəvini götürsək, təklikdə nə Türkiyənin, nə də Rusiyanın bu çətin zamanda baş saxlayacağına inanıram. Bəzən insanlar deyirlər ki, filan yer dağılsın və biz yaxşı yaşayaq. Lakin dağıntının altında, xarabalıqda qalmaq məsələsi var. Bizə bu prosesdən hər bir halda salamat çıxmaq lazımdır. Böyük anlamda götürdükdə biz kiçik bir ölkəyik, azsaylı xalqıq. Birinci növbədə öz çıxarlarımızı düşünməliyik. Eyni zamanda bir məqam da var ki, nə qədər inkar etsək də biz, hər iki ölkəyə bağlıyıq. Bəhs edilən iki ölkə arasında körpü rolunu oynayırıq. Məhz bu baxımdan deyirəm ki, Avrasiya İttifaqının tərəfdarıyam. Bu ölkələr arasında yaşayan heç bir konflikti ürək ağrısı ilə izləyə bilmirəm”.

**İradə Tuncay Rəşad Məcid və Aqil Abbasa olan qınaqlara belə cavab verdi:** “Aqil Abbas orada nə deyib ki? O bildirib mən, Rəşad Məcidlə razıyam ki, bu hadisə lazım deyildi. Yaxşı, Rəşad nə demişdi? Rəşad da deyib ki, indiyə qədər bu ölkələr belə yaxınlaşmamışdı və biz ümidlə baxırdıq ki, bundan hansısa rasional xeyir olacaq. Həm bizə, həm də, ümumiyyətlə, bölgədəki sülhə. Bir hərəkətlə bütün bu hadisələrin üstündən xətt çəkildi. İndi bu dəqiqə Rəşadı və Aqil Abbası düşmən etmək doğrudurmu? Anlamıram mən. Bəlkə də anlayıram. Görünür, kiməsə lazım idi bunu etmək. Qoy etsinlər də...”

❑ **Əli Rais**

YENİ MÜSAVAT
N 264(6291) 27 noyabr 2015




# Kərbəlanın ilk zəvvarı

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Məhərrəm-səfər əyyamı bir neçə kulminasiya nöqtəsi ilə səciyyəlidir. Bunların hər biri Aşura məktəbinin müəyyən dönəmlərini əhatə edir. Bu günlər arasında, istər məhərrəmlik dönəminin yaşanması ənənəsinin, istər ziyarət ənənəsinin bərqərar olması, istərsə də Aşura həqiqətlərini unutmağa qoymamaq baxımından Ərbəin - İmam Hüseynin (ə) şəhadətinin 40-cı günü xüsusi önəm təşkil edir.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## Ətiyyənin xatirəsi

**Ərbəin günü** - bir gündür ki, İmam Hüseynin (ə) müqəddəs məzarı ilk olaraq həmin gün ziyarət olunmuşdur. Ərbəin günü Peyğəmbərimizin (s) ən yaxın səhabələrindən olan Cabir ibn Abdullah Ənsarinin adı ilə bağlıdır. Rəsuli-Əkrəmin (s) bu sevimli və əziz məsləkdaşı ilk şəxsdir ki, İmam Hüseynin (ə) şəhadətinin 40-cı günü - "Ərbəin" günü, hicrətin 61-ci ili səfər ayının 20-də bu müqəddəs məzarın ziyarətinə gəlmişdir. Cabir Ənsarinin yaxınlarından olan Ətiyyə belə nəql edir: lCabir ibn Abdullah Ənsari ilə İmam Hüseynin (ə) ziyarəti üçün Mədinədən çıxdıq. O zaman ki, Kərbəlaya yetişdik, Cabir Fərat çayının kənarına getdi və qüsl aldı. Sonra libasını geyindi və ətir vurdu. Sonra hər addımında zikr deyə-deyə, İmam Hüseynin (ə) qəbrinə tərəf getdi. O vaxt ki, İmam Hüseynin (ə) qəbrinin kənarına çatdıq, mənə söylədi: "Əlimi pak qəbrin üzərinə qoy" (cənab Cabir Ənsarinin gözləri görmürdü). Mən belə də etdim. Bu anda gördüm ki, Cabir qəşş elədi və qəbrin üzərinə yıxıldı. Bir az üzünə su vurdum. O vaxt ki, Cabir özünə gəldi, 3 dəfə: "Ya Hüseyn! Ya Hüseyn! Ya Hüseyn!" dedi".

Nə mənalar var idi bu çağırışlarda! Hansı hissləri keçirir qocaman səhabə bu "Ya Hüseyn!" deməklə?

## "Ya Hüseyn!" fəryadı

Çox mənalar gizlənib cənab Cabir Ənsarinin bu "Ya Hüseyn!" deyərək çağırmasında. Əgər istəyirik başa düşək ki, necə olur Peyğəmbərin (s) yaşlı, ağsaqqal bir səhabəsi, onillər keçdikdən sonra Rəsuli-Əkrəmin (s) əziz nəvəsi İmam Hüseynin (ə) qəbri üstünə gəlib, burada qəşş edir və özünə gəldikdən sonra 3 dəfə "Hüseyn!" deyə səsləyir, gərək gedək bir başqa səhnəyə nəzər salaq.

**Allah Rəsulunun (s) hələ bu dünyada olduğu, bəşəriyyəti öz nuru ilə bərəkətləndirdiyi səadətli günlərin birində Cabir Ənsari o Həzrətin (s) yanına gəlir. Əziz İslam Peyğəmbəri (s) Cabirə buyurur:** "Cabir! Sən o qədər yaşayacaqsan ki, Hüseyn böyüyəcək və Allah Təala ona bir övlad verəcək ki, adı Əli /İmam Səccad(ə)/ olacaq. Sən o qədər yaşayacaqsan ki, Əli də /İmam Səccad (ə)/ böyüyəcək və Allah Təala ona bir oğul verəcək ki, elmləri yarandır, Muhəmməd Baqirdir. Sən mənim salamımı ona çatdırarsan".

Üç mühüm nöqtəni çatdırır Həzrət Peyğəmbər (s) öz sevimli səhabəsinə. Birincisi, cənab Cabirin həyatı barədə, çox yaşaması barədə ona məlumat verir. Sonra Rəsuli-Əkrəm (s), İmam Hüseynin (ə) əziz balası barədə və nəvəsi barədə xəbər verir öz sadiq məsləkdaşına. Eyni zamanda burada bir təbərrük yükünün daşınması ilə yanaşı, İlahi davamçılıq xəttinə də bir işarə var. Və bunlarla yanaşı, insanların nübuvvət nurundan bəhrələnmələrində sabitqədəm olmaları üçün höccət tamam edilir, dolğun və tam məlumat çatdırılır.

## 2 müqəddəs üfüq

Sanki 2 müqəddəs üfüqü canlandırır Cabirin gözü önündə Rəsuli-Əkrəm (s). Birincisi - İmam Səccad (ə) üfüqüdür ki, bəndənin Rəbbi ilə ünsiyyətinin, dua mədəniyyətinin ən gözəl çatdıranı olmuş, İslamın duaya verdiyi son dərəcə mühüm yeri, real məzmunla dorldurmuşdur. Bəndənin Yaradanla münacatının bir canlı təcəssümüdür "Səhifeyi-Səccadiyyə".

İkinci müqəddəs üfüq - İmam Baqir (ə) dühası ilə, İslamın elmə və elmlənməyə verdiyi misilsiz əhəmiyyəti öz mübarək vücudu ilə təsdiqləyən əziz 5-ci İmamla (ə) təşəkkül tapır. Və Həzrət Əlinin oğlu İmam Hüseynin oğlu İmam Səccadın oğlu İmam Muhəmməd Baqirə, elmləri yaran İmama (ə) salamını göndərən Peyğəmbərimiz (s), bu şərəfli missiyanı cənab Cabir Ənsariyə tapşırır.

## İllər keçir...

Cabir hələ yaşayır, amma artıq Həzrət Peyğəmbər (s) dünyadan gedib. Ümməti yetim qoyaraq, özü də nigaran gedir. Bəni-Səqifə fitnəsinə doğru gedənlərdən, ümməti parçalamaq istəyənlərdən nigaran gedir. Dağlar qədər olan Əli (ə) səbrindən, İslam düşmənlərini lərzəyə gətirən, fəqət vəhdətə xatir səbir edən İslamın cəngavəri Əlinin (ə) məzlumiyyətindən Rəsulun (s) qəlbi giziltilidir...

## İllər keçir...

Artıq Həzrət Əli (ə) də şəhid olur. Peyğəmbərin (s) rehlətindən 30 il keçir. Lənətlik xəvaric ibn Mülcəmin zəhərli qılıncı səcdə vəziyyətində olan İmam Əlinin (ə) mübarək başına endirilir... Başının qanına boyanır Həzrət Əlinin (ə) mübarək saqqalı. O kəsin qanına ki, dünyalar qədər elm var bunun sahibində. O kəsin qanına ki, İlahi məhəbbət və hər şeyi Allah xatirinə etməyin təcəssümü buradadır. Cabir isə hələ yaşayır. Bu böyüklükdə faciəni keçirir və yaşayır...

## İllər keçir...

Cabir yaşayır, amma artıq imamətin davamçısı İmam Həsən (ə) lənətlik Müaviyyənin göndərdiyi adamın verdiyi zəhərin təsiri altında vücudu odlana-odlana bu dünyanı tərk edir. Babasının - Həzrət Peyğəmbərin (s) yanında torpağa tapşırmağa belə imkan vermirlər İmam Həsənin (ə) müqəddəs vücudunu...

## İllər keçir...

Cabir yaşayır. Artıq İmam Hüseynin (ə) övladı İmam Əli ibn Hüseyn - İmam Səccad (ə) da böyüyür. Aşura günü yetişir. İmam Hüseyni (ə) şəhid edirlər. İmam Səccad (ə) - Hüseyn oğlu Əli əsir düşür İslamın düşmənlərinə. Həmin Əli ibn Hüseyn ki, Rəsuli-Əkrəm (s) Cabirə onun barəsində müjdə vermişdi.

Necə çətindir Cabirə yaşamaq, necə çətindir bu itkilərə, bu şəhadətlərə, dünyanın ən üstün insanlarının, yaranmışın ən kamil nümunələrinin ölümünə dözmək. Həzrət Peyğəmbərin (s), Həzrət Zəhranın (s.ə.), Həzrət Əlinin (ə), İmam Həsənin (ə), İmam Hüseynin (ə) şəhadətinə davam gətirmək necə çətindir Cabirə...

## Nələri düşünürdü Cabir?

Qayıdaq Ərbəin gününə. Mədinədən çıxıb Kərbəlaya gedən, artıq ahıllaşmış qocaman səhabə Cabirin yanına qayıdaq... O qəlbi pak Cabirin ki, ziyarətdən öncə cismini də pak edir. O Cabirin ki, ziyarətə gəlib "Hüseyn, Hüseyn, Hüseyn" deyir. Görəsən, Fərat kənarına gələndə, Fəratdan müqəddəs məzaradək gedəndə yol boyu nələri düşünürdü Cabir? Ərbəin ənənəsinin əsasını qoyan zaman, İmam Hüseynin (ə) ilk zəvvarı olan zaman nələri düşünürdü Cabir?

Yəqin ki, o anlarda körpə Hüseynin (ə) gülər üzünü yada salırdı Cabir. Peyğəmbərin (s) Hüseyni (ə) necə əzizləməsini, qucağında, boynunda gəzdirməsini xatırlayırdı Cabir. Yəqin həmin anlarda müqayisə aparırmış Cabir. Peyğəmbərin (s) Hüseyni bağrına basdığını, fövqəl diqqət yetirdiyini, Hüseynə (ə) olan məhəbbətini hər bir üsulla o zamanın müsəlmanlarına çatdırdığını xatırlayırdı Cabir. Və həmin mübarək başın - Peyğəmbərin (ə) əzizlədiyi Hüseynin, barəsində "Hüseyn məndəndir, mən də Hüseyndənəm!" kimi misilsiz bir dəyər çatdırışı verdiyi Hüseynin başının bədəndən ayrılmasını, nizəyə keçirilməsini düşünəcək Cabir...

Ətiyyəyə "əllərimi qəbrin üzərinə qoy" - deyərkən, müqəddəs məzarın üzərində qəşş edərkən yəqin ki, 40 gün öncə, Aşura günündə bu yerdə - Kərbəlada baş verən o müsibət gələcək Cabirin gözləri önünə. Bədəni doğram-doğram olmuş Hüseynin müsibətini yada salacaq, ümmətin qaragünlüyünü, bədbəxtliyini yada salacaq Cabir...

Özünə gəldikdən sonra, "Hüseyn, Hüseyn, Hüseyn!" - deyə ağlayan Cabir, Peyğəmbərin (s) ona vəsiyyətini yada salacaq, Hüseyn balası Əlinin - gözü qarşısında atası şəhid edilən İmam Səccadın (ə) əsirlikdə çəkdiyi müsibətləri xatırlayacaq Cabir. Ürəyi qana dönəcək, Əhli-beytin (ə) çəkdiyi bu müsibətlərdən qəddi bükülləcək Cabirin.

Amma ürəyinə toxtaqlıq verir Cabir. Hələ yaşamalıdır Cabir. Yaşamaq üçün bütün iradəsini toplamalıdır o. Vəzifəsi vardır Cabirin. Ona verilən Peyğəmbər (s) tapşırığı vardır. İmam Səccadın (ə) elmləri yaran övladı İmam Muhəmməd Baqirə (ə) cəddi Peyğəmbərdən (s) salam çatdırmalıdır Cabir.

Bu əmanəti sahibinə çatdıracaq Cabir. Peyğəmbər (s) vəsiyyətini yerinə yetirəcək Cabir. Bu simvolik salamla, illərdən bəri ən mühüm əmanət kimi saxlanılan bu Rəsullulah (s) salamı ilə müsəlmanlara haqqı batildən ayırmaq, düzgün yolu seçmək, Peyğəmbər (s) xəttini tanımaq üçün kömək edəcək Cabir.

Və "Hüseyn, Hüseyn, Hüseyn" deyən Cabir, əslində o səhnələrlə Ərbəin günü arasında bir körpü yaradır. Bir tərəfdən Peyğəmbərin (s) tapşırığı ilə, digər tərəfdən bu tapşırığa rəğmən, imamətin nuru ilə dava edən, İlahi həqiqətin daşıyıcılıq missiyasını aparan bir kəslə vəhşicəsinə davranan münafiqlərin, şər nökərlərinin misilsiz cinayət törətdikləri o Aşura günü arasında körpü yaradır Cabir. "Hüseyn, Hüseyn, Hüseyn" deməklə bir göz qırpımında Əhli-beytə (ə) üz verən bütün müsibətlər keçir göz önündən onun.

Düşünsək, Əhli-Beyt (ə) müsibətinin canlı salnaməsi və Əhli-Beytə (ə) sadiqliyin canlı təcəssümüdür Cabir...

## 1376-cı Ərbəin

Böyük gündür Ərbəin günü. Hüseyni xatırlama, Hüseyn qurbanını, Hüseyn dönməzliyini, şücaətini, əyilməzliyini, fədakarlığını yada salma günüdür Ərbəin. Hüseyni (ə) ziyarət etmə mədəniyyətinin bünövrəsi qoyulan bir gündür Ərbəin. Hər vəziyyətdə, hər üsulla Aşura həqiqətlərini, Aşura müsibətini bəşəriyyətə çatdıran, insanlara haqqı bəyan edən xanım Zeynəb (s.ə.) və İmam Səccad (ə), həmin günlərdə bir rövzə mədəniyyətinin əsasını da qoyublar. Onlar İmam Hüseyni (ə) yad etmək mədəniyyətini həyatları ilə yaşayıblar.

Cabir İmam Hüseynin (ə) ziyarətinin əsasını qoyur. Həzrət Peyğəmbər (s) və Əhli-Beytinin (ə) göstərişi olan bir ziyarətin, zalımın zülmünə lyox!» deməklə, məzlumun haqq səsinə səs verməklə səciyyələnən, insan övladına onun yüksək və şərəfli vəzifəsini xatırladan bir ziyarətin əsasını qoyur Cabir.

1376 il keçir o günlərdən. Hər il - artıq 1376 dəfə Ərbəin gününü qeyd etmişlər İmam Hüseyn (ə) aşiqləri. Hər il milyonlarla insan bu gündə can atır İmam Hüseynin (ə) ziyarətinə. Getməyə imkanı olmayanlar qiyabi oxuyurlar İmam Hüseynin (ə) ziyarətnaməsini. Bu ziyarətnamələrdə çox mənalar var, böyük mərifətlər, tanımalar, təqdimatlar var. Amma bir təqdimat, bir mərifət qırmızı xəttlə keçir bu anmadan, bu xatırlamadan. Haqla olmağı, haqqın yanında olmağı və haqsızlığa, ədalətsizliyə qarşı hər zaman mövqe sərgiləməyi öyrədir İmam Hüseynin (ə) ziyarəti. Yaxşılıqlara dəvət etmək və pisliklərdən çəkindirmək vəzifəsini daşımağa çağırır Hüseynin (ə) ziyarəti. Allaha xatir yaşamağı, rəhimli və mərhəmətli, şücaətli və səxavətli, əqidəli və prinsipial olmağa dəvət edir İmam Hüseynin (ə) ziyarəti. Uca Allah cəmi insanları Hüseyni (ə) tanıyanlardan, Hüseynlə (ə) olanlardan qərar versin!

İmam Hüseynin (ə nahaq tökülən qanı xatirinə, Uca Allah hər bir insanı hidayət yoluna gətirsin!

Allah Təaladan istəyimiz budur ki, İmam Hüseyn (ə) xatirinə, Əli ibn Hüseyn (ə) xatirinə, axıradək hürlük və azadəlik bayrağını buraxmayan İmam Hüseynin ələmdarı Həzrət Əbülfəzl Abbas xatirinə, Kərbəlada şəhid olmuş bütün o pak insanların xatirinə cəmi iman əhlini dünyada Peyğəmbər və Əhli-beytinin (ə) ziyarətindən, axirətdə isə şəfaətindən ayrı salmasın!

**Qadir Allah bütün günahsız qurbanları, yüksək amallar uğrunda şəhid olmuş insanları, Qarabağda, Fələstində - bütün dünyada şəhid olan yüzminlərlə insanı Kərbəla şəhidləri ilə məşhur etsin!**

**Uca Allah 12-ci İmam Həzrət Mehdi Sahib-əz-Zamanın (ə.f.) tezliklə zühur etməsini, o Həzrətin (ə.f.) zühuru ilə haqqın, ədalətin bərpasını nəsib etsin! Amin!**

YENİ MÜSAVAT
N 264 (6292) 27 noyabr 2015

# Biz bu məhkəmələrlə boğuşuruq, onlar isə...

## Dünyanın inkişaf etmiş ölkələrində ən qəribə məhkəmə iddiaları, ilginc proseslər

**Bu günlərdə Azərbaycan məhkəmələrini bir-birindən ilginc məhkəmə prosesləri gözləyir. Səs-küylü həbslər heç şübhəsiz ki, ardınca çoxlu sayda məhkəmələri də gətirəcək. Hələlik hər şey absurd həddə davam edir.**



Kimin nəyə görə həbs olunması, barəsində hansı ittihamların verilməsi dəqiqləşməyib. Amma "Yeni Müsavat" bu ərəfədə aktuallığını nəzərə alıb, dünyadakı ən absurd məhkəmə işləri, iddiaları ilə bağlı maraqlı bir dosye hazırlayıb. Məlum olub ki, okeanın o tayında insanlar bəzən həyatlarını maraqlı etmək üçün məhkəmə qapılarını döyürlər. Sırf ekstrim, cansıxıcı günlərinə rəng qatmaqçün.

### Amerikanlar başlarını itirib?

Ər-arvadlar arasındakı ilginc məhkəmə işlərindən biri isə 36 yaşlı Peter Vellislə(36) həyat yoldaşı Ceyn Vellis arasında yaşanıb. Amerikada yaşayan Peter boşandığı həyat yoldaşına aliment ödəməmək üçün məhkəmə iddiasında bildirib ki, Ceyn ona xəbərdarlıq etmədən, hiylə ilə hamilə qalıb. Məhkəmə onun iddiasını təmin etməyib.

Yenə həmin ölkədə bir qadın sürücü buzlu yolda motorlu bir xizəklə toqquşdu. Xizəyin sürücüsü öldü, qadın sürücü isə şahidi olduğu ölüm anında yaşadığı şoka görə ölənin dul həyat yoldaşından 1.5 milyon dollar mənəvi təzminat istəyib.

Bu ölkədə oğruların da hüquqları var imiş. Terrence Dickson adlı oğru bir evi soyandan sonra qarajdan çıxmaq istəyəndə qapı avtomatik olaraq bağlanıb, evin giriş qapısı da şifrəli olduğu üçün qapını aça bilməyib. Ev sahibləri tətildə olduğu üçün oğru düz 8 gün evdə yaşamalı olub. 8 gündə ancaq it yeməyi və kola ilə qidalanmaq zorunda qaldığı üçün oğru daha sonra mədə fəsadı keçirib. Buna görə də ev sahibindən 500 min dollar dəyərində təzminat istəyib və məhkəmə onun iddiasını təmin edib.

### Axı niyə fırtına qopdu - belə bir iddia

Floridada bir balıqçı şiddətli fırtınada öləndən sonra ailəsi hava proqnozu doğru çıxmadığı üçün bir telekanaldan 10 milyon dollar tələb edib. Məhkəmə 10 milyon dollar təzminat əvəzinə qərar verib ki, telekanal mərhumun dəfni üçün xərclənən vəsaiti ödəsin.

Həmin ştatda 40 yaşlı Doroti adlı qadın həyat yoldaşını yoldan çıxaran qadınla bağlı məhkəməyə müraciət edib və ondan 1 milyon dollar istəyib. Hakim 18-ci əsrdən qalmış bir səbəblə həmin işə baxılmasını qəbul edib. Proses xəyanətə uğrayan qadına 700 min dollarlıq təzminat verilməsi qərarı ilə yekunlaşıb.

"McDonalds" şirkəti ilə bağlı dünyaya səs salan bu ilginc davadan xəbəriniz var idi? 81 yaşlı Stella Liebekin bu restorandan aldığı kofe üstünə töküldüyü üçün dərisində yanıq izləri əmələ gəlib. Buna görə də yaşlı qadın restorandan düz 2.7 milyon dollar təzminat qazanıb. Amma sözügedən məhkəmədən sonra "McDonalds" bu cür iddianı təkrarlamaq istəyən başqa "ağıllılar"a qarşı müəyyən tədbirlər görüb.

### Evin olmasa da, ev dustaqlığı cəzası

Texasda yaşayan Katlin Robertsonun bir mebel mağazasına qarşı 780 min dollarlıq iddiasının qələbə ilə sonuclanması da tarixdə yer alan faktlardandır. 37 yaşlı Katlin bir mebel mağazasında hələ yeni yeriməyə başlayan balaca bir uşağa ilişərək yıxılıb və ayağını qırıb. Qadın mağaza rəhbərliyindən "mebelləri düzgün yerləşdirmədiyinə" görə şikayətçi olub. Amma qərar dükan rəhbərliyi üçün şok olub. Çünki Katlinin ayağına ilişən və yıxılmasına səbəb olan uşaq elə onun öz uşağı imiş.

Bir gecə klubuna girmək istəyən, amma giriş üçün 3.5 dollarlıq ödənişi vermək istəməyən Kara Valtonun məhkəmə hekayəsi isə daha ilgincdir. Bu gənc gecə klubuna ayaqyolunun pəncərəsindən girmək istəyərkən yıxılıb və dişlərini qırıb. Qabaq iki dişini qıran Kara buna görə gecə klubu rəhbərliyindən 12 min dollar təzminat alıb, üstəlik, xəstəxana xərclərini də ödətdirib.

Filadelfiyadakı bir restoranın müştərisi Amber Carson isə yeridiyi zaman ayağı sürüşüb yıxıldığı üçün restorandan məhkəməyə şikayət edib və 113 min 500 dollar təzminat qazanıb. Maraqlıdır ki, Çarsonun yıxılmasına yemək zamanı sevgilisi ilə dalaşanda onun başına atdığı "kola" butulkasının 30 saniyə sonra ayağına ilişməsi səbəb olub.

İtaliyanın Milan şəhərinin məhkəməsinin qərarı da absurd təsir bağışlayır. Belə ki, soyğuna təşəbbüs, kiçik oğurluqlar və narkotik maddə satıcılığında suçlanan evsiz-eşiksiz, küçədə yaşayan adama ev həbsi verilib. Evsiz adam bu minvalla ev dustağı olmalıdır. Məhkəmənin qərarına uyğun olaraq 48 yaşlı Domeniko Kodispoti 2006-cı ildən bəri eyni yerdə, küçədə yatmağa məhkumdur. Onun cəzası gələn ilin aprel ayında başa çatır.

Hər axşam gün batan kimi polis "Stazione Centrale"nin qarşısındakı "22 Via Vittor Pisani"' küçəsinə baş çəkir, Kodispotinin səkidə olub-olmadığını yoxlayır.

Məhkəmənin qərarına görə, Kodispoti səhər saat 7-dək həmin səkiyə atdığı döşəkçədə olmalıdır.

**"Səhərədək buradan tərpənə bilmərəm. Bir dəfə iki tin o yandakı ayaqyoluna getmək istəyirdim. Polis məni yarıyolda saxladı və hökmün şərtlərini pozmaqda suçladılar. Məhkəmə də cəzamı artırdı. İndi yenə qaydanı pozmaq, cəzamın daha da artmasını istəmirəm",** - Kodispoti deyib.

Almaniyanın Köln şəhər məhkəməsi qəribə hökm çıxarıb. Bu hökmə əsasən sahibkara işçiləri ilə bağlı əlavə səlahiyyətlər verilir. Lenta.ru saytının məlumatına görə, bundan sonra rəhbərlik xanımlardan işə gələrkən mütləq büstqalter geyməmələrini tələb edə biləcək. Məhkəmə hesab edir ki, bu, heç də hüquq və azadlıqların pozulması deyil. Qərara səbəb aeroportda sərnişinlərin yoxlanılması ilə məşğul olan şirkətlərdən birində bu sahədə yaranmış qalmaqaldır. Məhkəmə qərarına əsasən, indi bu şirkətin rəhbərliyi xanım işçilərin dırnağının uzunluğunu və ona çəkilən rəngi də müəyyənləşdirmək hüququna malikdir. Dırnaqların 0,5 santimetrdən uzun olması qadağandır.

❑ **Hazırladı: SEVİNC**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Dünyaca məşhur olan Qırğızıstan balı və müalicəvi bal məhsulları Azərbaycanda**

- *Arı südü*
- *Mumiya*
- *Möhtəşəm ağ bal*
- *İssık-Kul balı*
- *Esparset balı*
- *Çayek balı*
- *Şan balı*
- *Karkıra balı və s.*

**Xalisi yalnız bu ünvanda:** Bakı şəhəri, Neftçi Qurban küçəsi 119
**Tel:** (012) 491-23-82; (051) 922-15-71

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

Əlaqə nömrəsi (050) 264 49 99

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



# Bakıda tələbə qız intihar etdi

**Bakıda intihar hadisəsi baş verib. Tələbə özünü yaşadığı binanın damından atıb. Hüquq-mühafizə orqanlarından anspress-ə verilən məlumata görə, hadisə paytaxtın Nizami rayonunun Qara Qarayev prospekti 71 ünvanında qeydə alınıb. Həmin ünvanda yaşayan 1993-cü il təvəllüdlü Türkan Eldar qızı Həsənzadə özünü yaşadığı binanın damından yerə atıb.**

Nəticədə 22 yaşlı qız aldığı xəsarətdən hadisə yerindəcə ölüb. Hüquq-mühafizə orqanlarından bildirdilər ki, özünü öldürən qız Tibb Universitetinin tələbəsidir. Onun hansı səbəbdən intihar etməsi hələlik məlum deyil.

# YENİ MÜSAVAT

## Son səhifə

*N 264 (6291) 27 noyabr 2015*




## Saçlarımız haqqında bilmədiklərimiz

Son zamanlar qəbul etdiyimiz qidalar, keçirdiyimiz əsəb və streslərdən bir çox insanlarda saç tökülmə halları baş verir, bu da insanlara psixoloji problemlər yaradır. Aparılan araşdırmalara görə, hər 10 nəfərdən yeddisinin saçları tökülür. Üç nəfərdən biri isə saç əkdirmək üçün müraciət edir. Saç tökülməsi kişilərdə ciddi şəkildə özünə inamı itirir. Saç tökülməsi kişilərdə və qadınlarda müxtəlif səbəblərə malikdir. Sağlam saç gündə ortalama 50-100 tel arasında tökülür. Həddindən artıq saç tökülməsi hallarında isə bu say artır. Daraqlarımızda həddindən artıq saç yığıldığını gördükdə, saçımızın təhlükəli hal aldığını anlamalıyıq. Saç tökülməsinin bir çox səbəbi var. Qadınlarda hormonal problemlər, qan azlığı, vitamin və mineral çatışmazlığı, hamiləlik-doğum, həddən artıq riskli pəhrizlərlə əlaqədar zülal çatışmazlığı, spirt və siqaret qəbul etmələri və stress səbəbindən saç tökülmə baş verir. Kişilərdə saç tökülməsinin tibbi adı androgenetik alopecia adlanır. Ümumiyyətlə, kişilərdə saç əvvəl qırılmağa başlayır, daha sonra seyrəlməyə doğru gedir və saçın üst hissəsi tökülür. Qadınlarda isə hər bölgədən tökülmə eyni anda baş verir. Kişilərdə saç tökülməsi 17 yaşından başlayır. Saç tökülməsi insanda psixoloji olaraq problemlər yaradır.



## Ölümünə sayılı günlər qaldığı vaxtda evləndi

İngiltərə həkimlərin bir neçə gün yaşaya biləcəyini söylədiyi xərçəng xəstəsi Maggie Batt uzun müddətdir birlikdə olduğu sevgilisi ilə evlənib. 2 saat davam edən toyda Battın yaxınları, həkimlər və xəstəxana işçiləri iştirak edib. Onlar dəvətlilərin qarşısında evləndiklərini dilə gətiriblər. M.Batt bu günün ömrünün sonunda yaşadığı ən gözəl gün olduğunu deyib.

# Sevgilisindən ayrıldı, 107 kilo arıqladı

**Əvvəllər 327 kilo olan kök qadın sevgilisindən ayrıldıqdan sonra 107 kilo arıqlayıb. Amerikalı qadın sevgilisindən ayrıldıqdan sonra sürətlə çəki itirməyə başlayıb.**



Maraqlısı odur ki, Şanez uzun müddət əvvəl dünyanın ən kök qadını olmaq üçün əlindən gələni edib. İstəyinə çatmasa da çox kökəlib və bir daha arıqlaya bilməyib. Sevgilisinin onun bəyənmədiyini öyrəndikdən sonra isə ayrılmağa qərar verib. Çünki onlara birlikdə yaşadığı zaman davamlı yeməyi sevgilisi hazırlayırmış. Sevgilisindən ayrıldıqdan sonra isə yeməkləri özü hazırlamağa məcbur olub və yemək bişirə bilmədiyi üçün arıqlayıb.

# Özçəkim daha bir can aldı

Rusiyanın Moskva şəhərində 14 yaşlı yeniyetmə selfinin qurbanı olub. Özünün şəklini çəkmək istəyən oğlan 16-cı mərtəbədən yıxılıb. Belə ki, qeyri-adi şəkil çəkdirmək üçün binanın damına çıxan yeniyetmə müvazinətini saxlaya bilməyərək, oradan aşağı düşüb. Hündürlükdən yıxılan oğlan dərhal təcili yardımla xəstəxanaya aparılsa da, onun həyatını xilas etmək mümkün olmayıb. Hazırda faktla bağlı Korolev İstintaq Komitəsinin əməkdaşları tərəfindən araşdırmalar aparılır. Ümumiyyətlə, selfi çəkdirmək yeniyetmə və gənclər arasında həddən artıq populyarlıq qazanıb və insanlar heç nəyi düşünmədən istənilən yerdə, müxtəlif pozalarda selfi çəkdirirlər. Bu cür şəkillərlə kiminsə diqqətini cəlb etməyə çalışanlar anlamırlar ki, əslində bu, onların həyatları üçün çox təhlükəlidir. Hətta bununla bağlı Rusiyanın Daxili İşlər Nazirliyi selfi çəkənlər üçün yaddaş kitabçası hazırlayıb. Kitabçada bəzi vəziyyətlərdə insanların öz şəkillərini çəkməsinin nə qədər təhlükəli olduğu barədə xəbərdarlıq edilir. Yaddaş kitabçasında izahlı piktoqramlar yer alıb. Kitabçada selfi həvəskarlarının nəinki sağlamlığı, hətta həyatı üçün təhlükə törədən hadisələr nümunə göstərilir. Məsələn, nümunələrdə selfinin sükan arxasında, suda, binaların damında, yolda, dəmiryolunda, silahla və s. çəkilməsi yer alır.





## Çox təmizlik zərər verir

Alimlər asma və digər allergik xəstəliklərə səbəb olacaq şəkildə hədsiz təmizlik işlərinin doğru olmadığını açıqlayıblar. Hazırda istifadə edilən təmizlik vasitələri olduqca təsirlidir. Demək olar ki, həyatımızda olan mikrobların 99%-ni istifadə edilən təmizləyici vasitələr məhv edir. Lakin bütün bunlara baxmayaraq bütün gün təmizliklə məşğul olan insanlar var. Bu da asma və digər allergik xəstəliklərin yaranmasına səbəb olur. BBC-nin xəbərinə görə, 19-cu əsrin sonlarında alman həkim Robert Koç bəzi bakteriyaların xəstəliklərə səbəb olduğunu sübut etmişdi. Təmizləyici vasitələr kəşf edildikdən sonra isə bakteriyaların yaratdığı xəstəliklər azalmış oldu. Lakin həddən artıq təmizlik nəticəsində orqanizm mikrobların varlığını unudur. Hər hansı bir yerdə bakteriyalarla qarşılaşdıqda isə həm mikroba allergiya ilə reaksiya verir.




**QOÇ** - Yeni işgüzar əlaqələrə start vermək üçün Göy qübbəsi tərəfinizdə duracaq. Odur ki, bütün səylərinizi birləşdirməlisiniz. Günün ikinci yarısında şanslı məqamlar yaşayacaqsınız.

**BUĞA** - Böyük dəyişikliklər astanasındasınız. Qətiyyən tərəddüd etməyin. Nə qədər cəsarətli olsanız, işləriniz də bir o qədər uğurlu olacaq. Nahara qədər yeni təkliflərdən imtina etməyin.

**ƏKİZLƏR** - Dünəndən mənfi enerjili Ay bürcünüzdə qərar tutduğu üçün əbəs yerə risk etməyin. Çalışın ki, ünsiyyətdə olduğunuz insanlarla münasibətləri qoruyasınız. İşgüzarlığınızı artırın.

**XƏRÇƏNG** - Enerjinizin artdığı bir vaxtda özünüzü ələ almağa çalışın. Fikirlərinizi başa düşən adamlar arayın. Nahar ərəfəsində şəxsi büdcənizi artım gözləsə də, səhhətinizi də qorumalısınız.

**ŞİR** - Təxminən saat 15-dən sonra əsəblərinizi cilovlamağa çalışın. Boş dayanmaq olmaz. Mühüm adamlara baş çəkin ki, ulduzlar sizə sevinc bəxş etsin. Bu gün maddi gəlir də gözlənilir.

**QIZ** - Bu gün əsasən səhhətinizi qorumağa çalışın. İlk növbədə qlobal işlərin həllini, eləcə də səfərlə bağlı bütün planlarınızı təxirə salmağınız məsləhətdir. Cari sövdələşmələr səmərə verə bilər.

**TƏRƏZİ** - Səhər saatlarından başlayaraq qarşılıqlı münasibətlər zəminində, həmçinin işgüzar sövdələşmələrdə vəziyyət bir qədər gərgin olacaq. Odur ki, neytrallıq göstərin.

**ƏQRƏB** - Ulduzların düzümü maraqlı bir təqvim yaşayacağınızdan xəbər verir. Üzləşdiyiniz adamların əksəriyyəti öz zarafatları ilə ovqatınızı yüksəldəcək. Sövdələşmələr üçün də səmərəli vaxtdır.

**OXATAN** - Qarşınızda duran vəzifələrin çoxluğu sizi yoracaq. Lakin nəticənin uğurlu olacağını nəzərə alıb passivləşməməlisiniz. Nahardan sonra pulla bağlı istənilən riskdən uzaq olun.

**OĞLAQ** - Olduqca əhəmiyyətli gündür. Hansısa böyük bir işinizi həyata keçirməkdə şans qazanacaqsınız. Bununla yanaşı perspektivli görüşləriniz də mümkündür. Tanrını başınız üstündə hiss edin.

**SUTÖKƏN** - Yalnız münasibətlər zəminində uğurlarınız olacaq. Fəaliyyət və ya şəxsi işlər üçünsə sərfəli vaxt deyil. İnsanlara qarşı unutqanlığınızı dəf edin. İstirahətə daha çox yer ayırın.

**BALIQLAR** - Astroloji göstəricilər işlərinizin rəvan gedəcəyinə işarə edir. Hətta cəhd etdiyiniz təqdirdə maddi durumunuz da yaxşılaşa bilər. Axşama yaxın maraqlı görüş və sövdələşmələriniz mümkündür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# "50 ilk öpüş" gerçək oldu



Amerikada avtomobil qəzası nəticəsində yaddaşını itirən Nik Rakman 4 yaşlı qızı Lilah ilə hər gün yenidən tanış olur. O, son 4-5 ili xatırlamadığını deyir. Qızının dünyaya gəldiyini xatırlayan, lakin onun necə bu qədər böyüdüyünü görməyən qadın ona öyrəşə bilmədiyini deyir. Ona görə də əri hər gün qadına qızlarının şəkillərini və videolarını göstərir. Rekman cütlüyünün başına gələn qəribə hadisə baş rollarını Adam Sandler və Drev Barrymorenin paylaşdığı "50 ilk öpüş" ssenarisi ilə demək olar ki, eynidir.

**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300